Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

9 NOYABR 2019-cu il

№ 200 (4098)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

## PAŞİNYANIN QARABAĞ DANIŞIQLARI FORMATINI DƏYİŞDİRMƏK FİKRİNDƏN HƏLƏ ƏL ÇƏKMƏDİYİ ATƏT RƏHBƏRLİYİNDƏ MÜZAKİRƏYƏ ÇIXARILDI...

■ səh. 5 ■

Azərbaycanın hərbi büdcəni 21 faiz artırması Ermənistan təbliğatına "can verdi" - "Azərbaycan müharibəyə başlayır"... ■ səh. 3 ■

ABŞ və Rusiya Azərbaycanın təhlükəsizlik orqanlarının işinə eyni vaxtda yüksək qiymət verdi... ■ səh. 5 ■

Mariya Zaxarovadan Ermənistana və Azərbaycana iki fərqli mesaj - nasistlərlə əməkdaşlıq edənlərə heykəl və regionlararası yubiley forumu... ■ səh. 2 ■

Erməni lobbisi ABŞ-dan sonra Britaniya parlamentinə saxta "genosid" əli uzatdı - Britaniya Azərbaycandakı iqtisadi maraqlarına uyğun siyasət aparacaqmı... ■ səh. 6 ■

Ermənistanın "Spayka" pendiri ilə bağlı Rusiyanın jesti - siyasi təzyiq motivlərindən də danışılır... ■ səh. 6 ■

Son bir ildə 11700 erməni Ermənistanı tərk edib - "məxməri inqilab" ölkənin boşalmasını önləyə bilmədi... ■ səh. 10 ■

Azərbaycanın logistika siyasəti Avrasiyada güclü dəyişdirici faktora çevrilir ■ səh. 11 ■

Azərbaycanda sahibkarlara qanunsuz təzyiq göstərənlərin həbs dövrü başlaya bilər ■ səh. 14 ■



### «Qara pul köçürmələri» tək Azərbaycanla Türkiyə arasında deyil, başqa dövlətlərlə işləyən konkret ünvanlar var...

■ səh. 4 ■



Zabitlər və generalitet Paşinyana qarşı, «baş nazir ordunu qəsdlə zəif salır» ittihamı - əsl səbəb isə Azərbaycanın təcavüzə məruz qalması... ■ səh. 9 ■

Koçəryan Paşinyanın ABŞ-la siyasi bağlılığına dair Rusiyaya maraqlı mesaj verdi... ■ səh. 7 ■



Son illər xaricdə müdafiə edilmiş elmi işlərlə bağlı rəsmi araşdırma aparılacaq... ■ səh. 12 ■

■ səh. 8 ■ Əli Həsənov bayrağımızın milli qürur mənbəyinə çevrilməsinin tarixi və siyasi-psixoloji əsaslarından yazdı



■ səh. 2 ■ Mnatsakanyan İsveçdə aldığı zərbənin ardınca birini də Azərbaycan XİN-dən aldı...



■ səh. 10 ■ Ermənilər məşhur Ağrı dağını da "Ararat" adı ilə "Bibliyalaşdırır"...



■ səh. 13 ■ Özəl məhkəmə ekspertizalarının yolu açıldı...



■ səh. 14 ■ Sığorta şirkətləri ziyanla işlədiklərini gizlətmək üçün rüblük hesabatdan qaçır...



## Mnatsakanyan İsveçdə aldığı zərbənin ardınca birini də Azərbaycan XİN-dən aldı...

**AR XİN mətbuat katibi Leyla Abdullayeva erməni xarici işlər naziri Z.Mnatsakanyanın İsveçin Beynəlxalq Münasibətlər İnstitutunda çıxışı zamanı Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı söylədiyi fikirlərə münasibət bildirilməsinə dair KİV-in sualını cavablandırıb. L.Abdullayevanın adından "Bakı-Xəbər"ə daxil olmuş açıqlamada deyilir:**



"Əslində, Ermənistan xarici işlər naziri yeni heç bir fikir söyləməyib. Beynəlxalq səviyyədə işğalçı kimi tanınan bir ölkə rəsmisinin Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsindəki ərazilərini, güya ki, özünün işğal etməsi barədə eyni əsassız iddiaları. Məsələnin beynəlxalq hüquqi tərəfini bir kənara qoyaq, bu heç normal düşüncə çərçivəsinə belə sığmır. Təsəvvür edin, bir ölkə qanunsuz şəkildə digər ölkənin ərazilərini işğal edir, bu ərazilərdə tarixən yaşayan yerli azərbaycanlıları etnik təmizləməyə məruz qoyur, sonra da iddia edir ki, "bu ərazilərdə yaşayan 150.000 erməninin təhlükəsizlik problemi var". Bu ermənilərin ailələri, evləri, adları olduğunu səsləndirən erməni naziri görəsən öz ölkəsinin təcavüzkar siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlının evlərindən məhrum olduğunu, ailələrinin param-parça olduğunu, adlarının məcburi-köçkün və qaçqına çevrildiyini heç düşünübmü? Əlbəttə yox, əgər düşünsəydi bu kimi cəfəng fikirlərlə özünü və xalqını aldatmazdı və münaqişənin həlli istiqamətində real addımlar atılardı. Mnatsakanyan anlamalıdır ki, onun dediyi kimi bizim və ya sizin həqiqət olmur; həqiqət birdir və bu həqiqət dünya ictimaiyyətinə çox yaxşı bəllidir. Sadəcə, mövcud həqiqətləri saxtalaşdıraraq onu öz maraqları naminə müxtəlif şəkillərdə təqdim etmək təcrübəsi də mövcuddur ki, bunu da ən yaxşı Ermənistan bacarır".

## Mariya Zaxarovadan Ermənistana və Azərbaycana iki fərqli mesaj - nasistlərlə əməkdaşlıq edənlərə heykəl və regionlararası yubiley forumu...

**Nasizmin qəhrəmanlaşdırılmasına qarşı mübarizə ilə bağlı qətnamənin qəbul olunması xüsusi aktuallıq qazanır. "Trend"in məlumatına görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinq zamanı BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş qətnaməni şərh edərkən deyib.**



M.Zaxarovanın sözlərinə görə, həmin qətnamə ilə bağlı səsvermənin nəticələri onu göstərir ki, Rusiyanın təqdim etdiyi təşəbbüslərin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi ənənəyə çevrilir: "Qətnamənin qəbul olunması 2020-ci ildə İkinci Dünya Müharibəsində qələbənin 75-ci ildönümü ərəfəsində daha da aktuallıq qazanır. Bu vacib qətnamənin dəstəklənməsi aydın şəkildə təsdiqləyir ki, 1945-ci ildə əldə olunan qələbə BMT üzv dövlətlərinin birgə irsidir".

M.Zaxarova qeyd edib ki, qətnamədə müxtəlif ölkələrdə faşizmlə mübarizə aparanlara qarşı davam edən müharibə və bunun son zamanlarda daha geniş vüsət almasından narahatlıq ifadə olunur: "Bu sırada həm də nasistlərin tərəfində olanlara abidələrin açılması, adlarının küçələrə və məktəblərə verilməsi kimi addımlar da yer alır. Eyni zamanda İkinci Dünya Müharibəsi zamanı nasistlərlə əməkdaşlıq edən, hərbi və bəşəriyyətə qarşı cinayətlər törətmiş şəxslərin qəhrəman səviyyəsinə yüksəldilməsi ilə bağlı narahatlıq ifadə edilir". "Azərbaycanla Rusiya arasında münasibətlər nəhəng perspektivlərə malikdir" - deyən Mariya Zaxarova bildirib ki, ölkələr arasında münasibətlər dinamik inkişaf edir: "Bizi ümumi tarix, bu gün və gələcək birləşdirir. Ona görə də bu münasibətlər gələcəyə yönəlib və nəhəng perspektivlərə malikdir". M.Zaxarova daha sonra bildirib ki, Rusiya-Azərbaycan regionlararası yubiley forumu Moskvada keçiriləcək: "Forum noyabrın 22-23-də planlaşdırılıb. Bu, onuncu regionlararası forum olacaq. Tədbirin təşkilatçıları Rusiyanın İqtisadi İnkişaf Nazirliyi və Azərbaycanın İqtisadiyyat Nazirliyidir". O əlavə edib ki, regionlararası əlaqələr Rusiya və Azərbaycanın çoxplanlı ikitərəfli münasibətlərində böyük əhəmiyyət daşıyır və genişlənməkdə davam edir: "Buraya Rusiyanın 70-dən çox subyekti cəlb olunub. Rusiyanın 17 subyekti Azərbaycanla ticari-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə sazişlərə malikdir. Azərbaycanla ticarət həcminin üçdə bir hissəsindən çoxu Moskva və Moskva vilayətinin payına düşür. Ticarət tərəfdaşları arasında ilk onluğa Stavropol diyarı, Krasnodar diyarı, Çelyabinsk, Sverdlovsk, Saratov, Orenburq vilayətləri, eləcə də Sankt-Peterburq şəhəri və Tatarıstan respublikası daxildir".

# Prezident Ağcabədidə "ASAN xidmət" mərkəzinin tikintisinə 19 milyon 430 min manat ayırdı

**Prezident İlham Əliyev Ağcabədi rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.**



Sərəncamda qeyd edilir ki, Ağcabədi rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.25.1-ci yarımbəndində göstərilmiş məbləğin 19 430 000 (on doqquz milyon dörd yüz otuz min) manatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılsın.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# Vilayət Eyvazov polis nəfəri kimi yeni işə başlayan gəncləri dörd meyar üzrə yoxladı - görkəm, fiziki hazırlıq, ümumi biliklər və...

**Daxili İşlər Nazrliyinin Mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, kütləvi informasiya vasitələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, noyabrın 8-də Azərbaycan Respublikasının Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Əlahiddə Çevik Polis Alayında və Bakı şəhər Baş Polis İdarəsinin tabeli orqanlarında vakant olan post-patrul xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**



Aidiyyəti baş idarə və idarə rəislərinin də iştirak etdiyi tədbirdə nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. Ümumilikdə 368 iddiaçının arasından daha hazırlıqlı olan 238 nəfər seçilərək onların daxili işlər orqanlarında xidmətə qəbul olunmaları üçün Baş Kadrlar İdarəsinin rəhbərliyinə müvafiq tapşırıqlar verilib.

Namizədlər qarşısında çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında keçirildiyini vurğulayıb. General-polkovnik V.Eyvazov ulu öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının geniş intellektual səviyyəli, müasir texnologiyaların sirlərinə bələd olan, mükəmməl təhsil almış savadlı, vətənpərvər, milli-mənəvi dəyərlərə, dövlətçiliyə sadiq, müstəqilliyimizi, milli maraqlarımızı hər şeydən uca tutan gənclərdən asılı olduğunu dəfələrlə vurğuladıqlarını məmnunluqla xatırladıb. Belə yüksək mənəvi, işgüzar keyfiyyətlərə malik kadrların dövlət idarəçiliyində daha geniş şəkildə təmsil olunmaları, o cümlədən daxili işlər orqanlarında xidmətə qəbul üçün hər zaman əhəmiyyətli addımların atıldığını, hazırkı seçimlərin də göstərilən sahədə həyata keçirilən məqsədyönlü dövlət siyasətinin növbəti bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Nazir xidmətə qəbul üçün seçilən gəncləri təbrik edərək, gələcək xidməti fəaliyyətlərində polisin yüksək adını və mundirin şərəfini uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini, təcrübələrini daim artırmalarını, öz üzərilərində səylə çalışmalarını, insan və vətəndaş hüquq və azadlıqlarına, onların şərəf və ləyaqətinə hörmətlə, həmçinin vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını, bir sözlə, vətəndaş məmnunluğunun təminə öz layiqli töhfələrini vermələrini tövsiyə edib, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

## Müdafiə naziri Hulusi Akar "Türkiyə Suriya torpaqlarını işğal edir" iddialarına "CNN International" efirindən cavab verdi

**"Sülh Çeşməsi" əməliyyatı ilə bağlı "Türkiyə Suriya torpaqlarını işğal edir" iddialarının həqiqətə uyğun olmadığı ölkəmizin yüksək vəzifəli şəxsləri tərəfindən tez-tez dilə gətirilir".**

Baki-xeber.com-un Türkiyə Səfirliyinin Mətbuat Müşavirliyindən əldə etdiyi xəbərə görə, Türkiyənin Müdafiə naziri Hulusi Akar bu sözləri əməliyyatın keçirilmə səbəbinə bir daha aydınlıq gətirərkən deyib. Hulusi Akar CNN International kanalına açıqlamasında Türkiyənin Suriya və digər qonşularının siyasi birliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşdığını bildirib: "Biz Sülh Çeşməsi əməliyyatını həyata keçirərkən hər hansı bir işğal, müdaxilə və ya başqa bir şey etmirik. Burada ancaq terror təşkilatlarına qarşı əməliyyat keçiririk". YPG/PKK terror təşkilatının çəkilməli olduğu ərazilərdən hələ də çəkilmədiyini xatırladan H.Akar qeyd edib ki, "Həm Rusiya, həm də ABŞ YPG/ PKK-nın bu ərazilərdən çıxarılacağını vəd edib. Yəni onlar həm əməliyyatın keçirildiyi bölgədən, həm də həmin bölgənin şərqindən və qərbindən çıxarılmalı idi. Ancaq hələ də YPG terrorçuları tərəfindən yol verilən çox sayda pozuntu halları var və biz onlara qarşı mübarizə aparırıq. Eyni zamanda Rusiya və ABŞ-la əməkdaşlıq edərək YPG/PKK-nı həmin ərazilərdən çıxarmalarını tələb edirik".

***Baki-xeber.com***

# Azərbaycanın hərbi büdcəni 21 faiz artırması Ermənistan təbliğatına "can verdi" - "Azərbaycan müharibəyə başlayır"...

***Daşdəmir Əliyev:** "Ermənilər bizim hərbi büdcəmizin artımından belə narahatdırlarsa, yaxşı olar ki, işğaldan əl çəksinlər"*

**Azərbaycan gələn il üçün müdafiə xərclərini 21% artırıb. Bu, rəsmi məlumatlarda da öz təsdiqini tapıb. Maraqlıdır, Ermənistanla aparılan diplomatik danışıqların uzun zamandır nəticəsiz qaldığı, rəsmi İrəvanın öz işğalçılıq siyasətindən imtina etməyəcəyi ilə bağlı bəyanatlar verdiyi bir zamanda büdcəyə olan bu artım daha çox Ermənistanı əndişəyə salıb.**

Onlar iddia edirlər ki, bütün bunlar Azərbaycanın müharibəyə hazırlığı kimi qiymətləndirilə bilər. Aydındır ki, bizim əsas məqsədimiz ərazi bütövlüyümüzü bərpa etməkdir. Bu məsələdə ermənilərin atacağı addımlardan da çox şey asılı olacaq. Azərbaycan hökuməti bu yöndə addımları atır və gələcəkdə də atacaq. Azərbaycanın hərbi büdcəsini artırmasından ermənilərin keçirdiyi narahatlığın kökündə hansı amillər dura bilər?

Hərbi ekspert Daşdəmir Əliyev qəzetimizə bildirdi ki, Azərbaycanın hərbi büdcəsini istədiyi kimi artırmağa haqqı çatır: "Çünki biz müharibə şəraitində yaşayırıq. Torpaqları işğal altında olan ölkə bundan başqa nə etməlidir? Bu heç də o anlama gəlmir ki, biz bunu sırf müharibə xatirinə edirik. Biz hər zaman demişik ki, münaqişənin sülh yolu ilə nizama salınmasının tərəfdarıyıq. Ancaq görürük ki, bu səylər səmərə vermir. Ermənistan daim müharibə ritorikası ilə danışır. Azərbaycanı yeni əraziləri zəbt edə biləcəyi ilə təhdid edir. Hətta onların müdafiə naziri bu fikirləri açıq şəkildə etiraf edibsə, biz niyə öz ehtiyatımızı görməməliyik? Torpaqlarımızı istənilən yolla işğaldan azad etmək bizim haqqımızdır. Bunu bizə kimsə qadağan edə bilməz. Ara-sıra bəzi ölkələr və beynəlxalq təşkilatlar da buna irad tuturdu. Yaxşı olardı ki, onlar ABŞ tərəfindən Dağlıq Qarabağdakı separatçı rejimə maliyyə vəsaitinin ayrılması məsələsinə də diqqət ayırsınlar. Bunu demokratik dəyərlər, insan haqları ilə izah edən ABŞ hökuməti eyni "duyarlılığı" Abxaziya, Cənubi Osetiya və Dnestryanı problemində nümayiş etdirmir. Həmin vəsaitlər isə humanitar yardım adı ilə separatçı qurumun silahlanmasına sərf edilir. Ermənilər bizim hərbi büdcəmizin artımından belə narahatdılarsa, yaxşı olar ki, işğaldan əl çəksinlər. Bir faktı da deyim ki, Ermənistanın da hərbi büdcəsində artım müşahidə olunur. Sadəcə, bizim büdcəmizin həcmi böyükdü deyə, rəqəmlər onların gözünə çox girir. Çox normal addımdır. Azərbaycan Ordusunun daha da qüdrətlənməsi üçün onun maddi təminatı yüksək səviyyədə olmalıdır".



*Məhəmmədəli QƏRİBLİ*

Azərbaycan Respublikasının KONSTİTUSİYASI

*Azərbaycan xalqının vahidliyi*
*Azərbaycan dövlətinin təməlini təşkil edir.*
*Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətənidir.*

Azərbaycan Respublikasının Konstitusiyası

Azərbaycan xalqını

12 NOYABR -
KONSTİTUSİYA GÜNÜ

münasibəti ilə təbrik edir,
Azərbaycan Respublikasının bütün vətəndaşlarına sülh, əmin-amanlıq və xoşbəxt gələcək arzulayırıq!

AVROMED

# "Qara pul köçürmələri" tək Azərbaycanla Türkiyə arasında deyil, başqa dövlətlərlə işləyən konkret ünvanlar var...

## ***Natiq Cəfərli:** "Biz vaxtilə qoyulan sərt məhdudiyyətlərin böyük bir qismini aradan qaldırmasaq, vəziyyət düzələn deyil"*

**Bu günlərdə Azərbaycan Respublikasının Baş Prokurorluğu ölkə ərazisində törədilən böyükhəcmli iqtisadi cinayətlə bağlı rəsmi məlumat paylaşdı. Həmin məlumatda bildirilirdi ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş məlumatlar əsasında həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri ilə qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına (vergi uçotuna) alınmadan və xüsusi razılıq (lisenziya) almadan pul vəsaitlərinin müəyyən xidmət haqqı müqabilində qanunsuz olaraq ayrı-ayrı şəxslərdən qəbul olunması və həmin şəxslərin sifarişi ilə üçüncü şəxslərə təhvil verilməsi üzrə xidmət göstərilməsindən ibarət qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olan cinayətkar şəbəkənin qanunsuz əməlləri ifşa edilib.**

Həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri ilə İsgəndərov Rəşad İmran oğlunun 2018-2019-cu illər ərzində faktiki olaraq bank fəaliyyəti ilə məşğul olaraq tanışı Mustafa Kılıç Murat oğlu və digər bir qrup şəxslərlə qabaqcadan əlbir olub Bakı şəhərinin Binəqədi rayonu ərazisində yerləşən ofisində gizli formada qeydiyyatını və mühasibatlığını aparmaqla ona müraciət edən ayrı-ayrı şəxslərdən aldığı müxtəlif məbləğlərdə pul vəsaitini Türkiyə Respublikasında qəbul etməli olan şəxslərə təhvil verilməsini təşkil etməsinə, habelə eyni məqsəd və üsulla həmin ölkədə fəaliyyət göstərən belə qruplar tərəfindən qəbul edilmiş pul vəsaitlərinin Azərbaycan Respublikasında ayrı-ayrı şəxslərə çatdırılması müqabilində ümumi dövriyyəsi 88 milyon 744 min ABŞ dolları və 6 milyon 110 min avro təşkil edən (həmin dövrün məzənnəsi ilə, ümumilikdə, 162 milyon 720 min manat) 14 min 553 qanunsuz əməliyyat nəticəsində 1 milyon 344 min manat məbləğində pul vəsaitini gəlir qismində əldə etməsinə, eyni zamanda, həmin pul vəsaitini Kılıç Mustafa və başqaları ilə aralarında bölərək qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına əsaslı şübhələr müəyyən edilib.

Məlum olub ki, təkcə bir qrupun həyata keçirdiyi əməliyyat nəticəsində 100 milyon məbləğində pul vergi və digər ödənişlərdən yayındırılaraq, ölkələr arasında birindən digərinə transfer olunub. Bunun adına loru dildə "qara pulköçürmə" deyilir. Məlumatlı şəxslərin dediyinə görə, bu əməliyyat yalnız Türkiyə ilə Azərbaycan arasında həyata keçirilmir. Azərbaycanlıların daha sıx yaşadığı Rusiya və başqa ölkələrlə də analoji əməliyyatlar aparılır. Bununla da dövlətimizin büdcəsinə külli miqdarda ziyan vurulmuş olur. Belə halların qarşısını tam almaq mümkündürmü və bunun üçün hansı addımlar atılmalıdır?

İqtisadçı Natiq Cəfərli "Bakı-Xəbər"ə bildirdi ki, bu problemin mövcudluğuna bir qədər geniş prizmadan baxmaq lazımdır: "Şəxsən mən hesab edirəm ki, dünyada iki şeyin qarşısını almaq çətindir. Biri pul qazanmaq, digəri isə ideyaların. Harada qazanc mənbəyi olacaqsa, insanlar həmin istiqamətə meyl edəcəklər. Deyiniz sahədə də yaxşı qazanc var. Bir qrupu həbs edəcəklər, digərləri gəlib həmin işlə məşğul olacaqlar. Yəni bunun qarşısını yalnız inzibati amillərlə almaq mümkün deyil. Bəs bunu doğuran səbəblər nə ilə bağlıdır? Buna bir nəzər salmaq lazımdır. 2015-2016-cı illərdə ölkədən pul köçürülməsi ilə bağlı ciddi məhdudiyyətlər oldu. Devalvasiyalardan sonra ölkədən külli miqdarda valyuta axınının qarşısını almaq üçün belə addım atıldı. Məhdudiyyətlər çox sərt idi. Hətta Azərbaycandan xaricə mal göndərərkən, 150 gün ərzində həmin malın ekvivalentində pulun geri qaytarılması tələb olunurdu. Bu məhdudiyyəti əsasən Maliyyə Bazarlarına Nəzarət Palatası tətbiq etdi. Əslində, bu şəkildə qoyulan məhdudiyyətlər rəqabətli bazar şəraiti anlayışına ziddir. Pul sahibi leqal işlə məşğuldursa, köçürdüyü pulun mənbəyi ilə bağlı hər hansı bir şübhə yoxdursa, iş adamının istənilən ölkəyə, istənilən məbləğdə pul köçürmək imkanı olmalıdır. Təəssüf ki, Azərbaycanda bu məhduddur. Hazırda 20 minə qədər olan hissənin bir qaydaları, ondan artıq məbləğin daha sərt qaydaları müəyyənləşib. Məhz bu amil qeyri-leqal pulköçürmələrə meyli artırdı. Azərbaycandan belə qanunsuz köçürmələr Türkiyədən çox Rusiya ilə edilir. Hətta Orta Asiya ölkələri ilə də belə əməliyyatlar həyata keçirilir. Proses banklardan yan keçməklə aparılırsa, təbii ki, bunun ölkəyə ziyanı var. Dövlətin, bankların qazanmalı olduğu pulu bir qrup işbaz əldə edir. Buna görə 1-5 arası faiz müəyyənləşib. Bunun üçün də biz bank sektorumuzu real tələblərə uyğunlaşdırmalıyıq. Biz vaxtilə qoyulan sərt məhdudiyyətlərin böyük bir qismini aradan qaldırmasaq, vəziyyət düzələn deyil. Yeganə məhdudiyyət köçürülən pulun mənbəyi ilə bağlı olmalıdır.



*"Yeganə məhdudiyyət köçürülən pulun mənbəyi ilə bağlı olmalıdır"*

**Belə olarsa, pulköçürmələr leqallaşar və banklar vasitəsilə həyata keçirilə bilər. Qanunvericilikdə müvafiq dəyişiklikləri etməklə biz prosesi tam leqallaşdıra bilərik. Əsas da Maliyyə Bazarlarına Nəzarət Palatası öz qaydalarını dəyişməlidir ki, pulköçürənlər qoyulan məhdudiyyətləri aşa bilsinlər".**

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın Qarabağ danışıqları formatını dəyişdirmək fikrindən hələ əl çəkmədiyi ATƏT rəhbərliyində müzakirəyə çıxarıldı...

**Ermənistanın danışıqların formatını dəyişmək cəhdi sülh prosesinə açıq-aşkar təhlükədir. Bu cəhdlər 2019-cu il martın 9-da həmsədrləri bəyanat verməyə vadar etdi. Bu bəyanatda onlar münaqişə tərəflərini digər tərəfin razılığı olmadan danışıqların formatında birtərəfli dəyişikliklərin edilməsi tələbindən çəkinməyə çağırdılar.**



## *Məhəmməd Əsədullazadə: "Danışıqlar formatını dəyişmək birbaşa Paşinyanın avantürasıdır"*

Bu sözlər Azərbaycanın ATƏT yanında Daimi Nümayəndəliyinin qurumun Daimi Şurasının noyabrın 7-də keçirilmiş iclasında həmsədrlərin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı təqdim etdiyi hesabat ətrafında müzakirələr zamanı səsləndirdiyi bəyanatında əksini tapıb.

Bəyanatda xatırladılıb ki, ATƏT-in Minsk Konfransının formatı konsensus yolu ilə ATƏT-ə üzv ölkələr tərəfindən razılaşdırılıb, BMT-nin müvafiq qətnamələri tərəfindən dəstəklənib və formatın dəyişməsi müzakirə mövzusu ola bilməz: "Minsk Konfransı çağırılacağı və bununla bağlı konsensus əldə olunacağı təqdirdə Azərbaycanın Dağlıq Qarabağ regionunun azərbaycanlı və erməni icmaları ilə məsləhətləşmə aparılar. Lakin biz bu mərhələdən hələ uzağıq, çünki Ermənistan Azərbaycanın bu regionunun azərbaycanlı icmasının mövcudluğunu tanımaqdan imtina edir. Ermənistan Baş nazirinin qızışdırıcı "Dağlıq Qarabağ Ermənistandır, nöqtə" bəyanatı beynəlxalq ictimaiyyət, o cümlədən, həmsədr ölkələr tərəfindən haqlı olaraq hiddətlə qarşılandı. Bu cür bəyanatlar, həmçinin, Ermənistan müdafiə naziri tərəfindən səslənən "Qarabağ məsələsi həll olunub" bəyanatı sülh prosesi üçün zərərlidir. Üstəlik, Ermənistan tərəfi BMT Təhlükəsizlik Şurasının dəstəklədiyi, ATƏT-in qəbul etdiyi qərarlara əks gedərək israrla statusla bağlı məsələni irəli sürür".

Danışıqların formatının dəyişdirilməsi ilə bağlı Paşinyan hakimiyyətə gələndən əsassız səylər göstərir. O, Baş nazir olandan sonra bununla bağlı bir sıra təşəbbüslərlə çıxış edib. Ancaq onun bu yöndə səyləri Azərbaycan və həmsədrlər tərəfindən qəbul olunmayıb. Buna baxmayaraq, görünən odur ki, Ermənistan hakimiyyəti hələ də danışıqlar formatının dəyişdirilməsi istəyindən əl çəkməyib. Nəzərə alsaq ki, mövcud formatı beynəlxalq təşkilatlar dəstəkləyir, o zaman Ermənistanın bu yöndə səyləri təxribat deyilmi?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin fikrincə, formatın dəyişdirilməsi ilə bağlı tələblər Ermənistan tərəfindən danışıqların pozulmasına yönəlib: "Ermənistan Baş naziri Nikol Paşinyanın Qarabağ münaqişəsinin nizamlanmasında tutduğu mövqe və ritorikası mövcud danışıqları pozmağa hesablanıb. Qeyd edim ki, danışıqlar formatını dəyişmək birbaşa Paşinyanın avantürasıdır. Məqsəd status-kvonu qoruyub saxlamaqdan ibarətdir. Hesab edirəm ki, ATƏT-in Minsk Qrupunun vasitəçiliyini belə nəzərə almayan rəsmi İrəvan siyasi-diplomatik danışıqları sabotaj edirsə, mütləq bu ölkəyə təzyiqlər edilməlidir. Məhz BMT tərəfindən qəbul edilən Minsk formatı çərçivəsində aparılan yenilənmiş "Madrid prinsipləri"ndən imtina etmək Ermənistanın işğalçı siyasətinin bariz nümunəsidir. Təəssüf ki, ikili standartlar və işğalçıya loyal münasibət Ermənistan rəhbərliyinin hələ də bu ritorikadan istifadə etməsinə gətirib çıxarıb. Ənənəvi danışıqlardan çıxmaq və formatı dəyişmək, təbii ki, Azərbaycanın sərt reaksiyasına səbəb olacaq. Qeyd edim ki, Ermənistan rəhbərliyinin bu sabotajı Qarabağda yenidən döyüş əməliyyatlarının başlamasına rəvac verir".

*"Təəssüf ki, ikili standartlar və işğalçıya loyal münasibət Ermənistan rəhbərliyinin hələ də bu ritorikadan istifadə etməsinə gətirib çıxarıb"*

***Vidadi ORDAHALLI***

# ABŞ və Rusiya Azərbaycanın təhlükəsizlik orqanlarının işinə eyni vaxtda yüksək qiymət verdi...

**Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) direktoru Aleksandr Bortnikov MDB dövlətlərinin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının Daşkənddə keçirilən 47-ci iclasında deyib ki, MDB ölkələrinin cənub sərhədlərinin təhlükəsizliyini təmin etmək xüsusi xidmət orqanlarının əsas vəzifələrindən biridir.**



## *Elşən Həsənov: "Hələ SSRİ vaxtında bir neçə ölkə üzrə ixtisaslaşmış Azərbaycan DTK-sının Yaxın Şərq üzrə böyük təcrübəyə malik olan professional kadrları vardı"*

Onun sözlərinə görə, Əfqanıstanda möhkəmlənmiş İŞİD terror qruplaşması və "əl-Qaidə" tərəfindən təhdidləri zərərsizləşdirmək üçün birgə fəaliyyətin intensivliyini artırmaq vacibdir.

FTX rəhbəri Azərbaycanın da xüsusi xidmət orqanlarının terrorla mücadilədə aktiv və səmərəli fəaliyyət göstərdiyini qeyd edib. O əlavə edib ki, bu il Rusiya Azərbaycan, Tacikistan, Qırğızıstan və Özbəkistanla birlikdə 13 beynəlxalq terrorçu yuvasını aşkarlayıb, onların fəaliyyətinin qarşısı alınıb, 138 yaraqlı tutulub: "2019-cu il may-oktyabr aylarında terrorçu və dini ekstremist təşkilatlarla əlaqədə şübhəli bilinən 200-dən çox MDB ölkələri vətəndaşı sərhəd nəzarəti altına alınıb".

Qeyd edək ki, bundan bir neçə gün əvvəl ABŞ da Azərbaycanın xüsusi xidmət orqanlarının fəaliyyətinə əla qiyməti vermişdi. ABŞ Dövlət Departamentinin müxtəlif ölkələrin terrorçuluq əleyhinə apardığı mübarizə barədə 2018-ci il üzrə açıqladığı hesabatda bildirilir ki, Azərbaycan 2018-ci ildə terrorçuluqla mübarizədə fəal iştirak edib. Hesabatda qeyd olunub ki, Azərbaycan hökuməti ötən il öz ərazisindən və dəniz sərhədlərindən, eləcə də bütünlüklə Cənubi Qafqazda insan, pul və material daşınması ilə məşğul olan terror qruplaşmalarının səylərinin qarşısının alınması üzərində fəal işləyib. Həmçinin, Azərbaycanın hüquq-mühafizə orqanlarının terror aktlarının qarşısının alınması üzrə əməliyyatlar keçirdiyi bildirilib.

Qeyd olunub ki, Azərbaycanda hüquq-mühafizə orqanları və təhlükəsizlik xidmətləri terror hücumlarının qarşısını alıb, şübhəlilər həbs olunaraq mühakimə edilib. Bildirilib ki, terrorçu qruplaşmalara qoşulmaqda və ya onları maliyyələşdirməkdə şübhəli bilinən azərbaycanlıların geri qaytarılması ilə əlaqədar cinayət işi açılıb. Hesabatda o da xatırladılıb ki, 2018-ci ildə Azərbaycanda terror aktı qeydə alınmayıb.

Göründüyü kimi, dünyanın hər iki superdövləti Azərbaycanın xüsusi xidmət orqanlarının fəaliyyətindən razıdır. Azərbaycanın əlaqədar qurumları bu gücü nədən alır ki, onların fəaliyyətinə belə qiymət verilir?

Təhlükəsizlik orqanlarının sabiq əməkdaşı Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə qiymətləndirmə konkret faktlara əsaslanır və təsədüfən meydana çıxmır: "İstər ABŞ Dövlət Departamentinin, istərsə də Rusiya FTX-nin Azərbaycan təhlükəsizlik orqanlarının fəaliyyəti barədə müsbət rəyləri qürurverici və sevindirici faktdır. Əlbəttə ki, bütün bunlar boş yerdən qaynaqlanmır.

Azərbaycan təhlükəsizlik qüvvələri müasir dövrümüzə qədər böyük və şanlı bir yol keçiblər. SSRİ DTK-sının bir strukturu olaraq Azərbaycan DTK-sı irimiqyaslı bir çox əməliyyatın planlaşdırılmasında və həyata keçirilməsində müstəsna rol alıb ki, burada Azərbaycan çekistlərinin iştirakı və uğurları xüsusi xidmət orqanlarının dərs vəsaitlərində işıqlandırıla biləcək dərəcədə tarixə düşüb. Heç kəsə sirr deyil ki, hələ SSRİ vaxtında da Yaxın Şərqin bir neçə ölkəsi üzrə ixtisaslaşmış Azərbaycan DTK-sının Yaxın Şərq üzrə böyük təcrübəyə malik olan professional kadrları vardı.

Bundan əlavə, müstəqillik dövründə digər ölkələrin analoji strukturları ilə sıx əməkdaşlıq, təcrübə mübadiləsi də bu işdə öz sözünü deyir.

Çox təəssüflər olsun ki, bu orqanların fəaliyyəti və iş prinsipləri məxfi xarakterli olduğundan, mövzunu daha əhatəli şəkildə işıqlandıra bilmirik. Amma qətiyyətlə deyə bilərəm ki, son dövrlər regionda və eləcə də Yaxın Şərqdə vəziyyətin qeyri-stabil inkişafının, ələlxüsus da terror hərəkətlərinin qarşısının alınmasında Azərbaycan təhlükəsizlik orqanlarının fəaliyyəti diqqəti cəlb edir.

Düşünürəm ki, indiki halda dediklərimdən artıq faktları sadalamaq imkanlarımın dövlət sirri baxımından məhdud olduğunu nəzərə alaraq, yuxarıda söylədiklərimlə kifayətlənmək olar".

***Məhəmmədəli QƏRİBLİ***

**Dünyada güclü olan erməni diasporu daim ümumtürk maraqlarına zərbə vurmağa çalışıb. Bu kontekstdə Azərbaycanla Türkiyənin adını xüsusi vurğulamaq olar. Onların əllərində alət kimi istifadə etdiyi vasitələrdən biri də saxta "soyqırım" iddialarıdır.**

# Erməni lobbisi ABŞ-dan sonra Britaniya parlamentinə saxta "genosid" əli uzatdı - Britaniya Azərbaycandakı iqtisadi maraqlarına uyğun siyasət aparacaqmı...



## *Zamin Axundov: "Mən Böyük Britaniyanın ABŞ-ın səhvini təkrar edəcəyinə inanmıram"*

Təbii ki, ermənilər bu saxta iddianı dünyanın müxtəlif ölkələrində həyata keçirmək istəyirlər. Ancaq dünyanın əsas ölkələri də belə addım atmazdan əvvəl Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin vəziyyətini nəzərdən keçirir. Məhz bu amilə görə bir çox ölkə ermənilərin məkrli niyyətlərini ürəyində qoymalı olub.

Ancaq fürsət düşən kimi, erməni diasporu yenə öz istəklərini reallaşdırmağa can atır. Suriyada ABŞ-la Türkiyə arasında gərginlik yaşanan kimi, erməni diasporunun səyi nəticəsində ABŞ Konqresi saxta "soyqırım"la bağlı qərar qəbul etdi. Analoji cəhdlər hazırda Böyük Britaniyada olunur. Britaniya parlamentinin erməni əsilli üzvü lord Ara Darzi nüfuzlu "The Guardian" qəzetində dərc etdiyi məktubunda ABŞ Konqresinin qərarını əsas gətirərək, Britaniya parlamentindən də analoji qərarın qəbul edilməsini xahiş edir.

Erməni parlamentari öz məktubunda Britaniyanın indiyə qədər belə bir qərarı qəbul etməməsini ciddi nöqsan kimi dəyərləndirib. Britaniya parlamentinin ilk erməni üzvü kimi müraciət edən Darzi saxta "soyqırım"la bağlı əsaslandırılmamış faktları təqdim etməklə, təmsil olunduğu ölkənin ictimai fikrini yanlış istiqamətə yönəltməyə çalışıb.

Real situasiyada Britaniya parlamentinin də belə bir qərarı qəbul etməyəcəyinə zəmanət yoxdur. ABŞ-ın ardınca onun da belə saxta sənədə imza atacağı istisna edilmir. Məlumdur ki, Britaniya ilə Azərbaycanın da ciddi əlaqələri var. Həmin ölkənin Azərbaycanda kifayət qədər investisiyası mövcuddur. Belə bir qərarın qəbulu münasibətlərə ciddi xələl gətirə bilər. Bu məsələdə Böyük Britaniya Azərbaycandakı maraqlarını da nəzərə alıb hansı qərarı qəbul edə bilər?

Politoloq Zamin Axundov qəzetimizə bildirdi ki, tarixi həqiqətləri saxtalaşdırmaq və təhrif etmək yolu tutan erməni ideoloqları yarım əsrdən çox müddətdə dünya ictimaiyyətini mif üzərində qurulmuş qondarma "soyqırımı" iddiaları ilə çaşdırmağa, təkcə qardaş Türkiyənin deyil, ümumən Türk dünyasının, o cümlədən, Azərbaycanın beynəlxalq nüfuzuna xələl gətirməyə çalışırlar: "Uzun illərin müşahidələri göstərir ki, real əsası olmayan bu saxta iddianın davamlı şəkildə gündəmdə saxlanmasına yönəlmiş səylər ermənilərin başqa dövlətlər hesabına daha geniş coğrafi əraziyə yiyələnmək üçün həyata keçirdikləri soyqırım, terror və deportasiya siyasətini pərdələmək, diqqəti özlərinin işğalçılıq faktından yayındırmaq məqsədi güdür.

*"Onları istər Azərbaycan, istərsə də Türkiyə ilə bağlayan daha ümdə maraqlar var"*

Ermənilər uzun illərdir tarixdə heç zaman olmayan uydurma "soyqırımı" dünyanın gündəliyinə gətirərək ondan siyasi məqsədlər üçün istifadə edirlər. İndi ayrı-ayrı ölkələrin parlamentlərində deputatlar əl qaldırıb, endirməklə sözdə "soyqırımı"nın guya 1915-ci ildə olduğu barədə sənədlər qəbul edirlər. Bir səhifə tarix kitabını oxumayan, uğursuz tarixçi rolunda çıxış edən ayrı-ayrı əcnəbi deputatların bu hərəkəti təkcə məsuliyyətsizlik deyil, tarixi faktlar, materiallara hörmətsizlikdir, tarixi inkar etməkdir.

Təəssüf ki, erməni lobbisi və diasporunun məkrli siyasətinə uyan bir çox ölkənin parlamentləri qondarma "erməni soyqırımı" ilə bağlı müxtəlif sənədlər qəbul edib, bu əsassız iddiaları tanıyıblar. Ermənilər uzun illərdir tarixdə heç zaman olmayan uydurma "soyqırımı" dünyanın gündəliyinə gətirirək ondan siyasi məqsədlər üçün istifadə edirlər. Əslində, bu nə Türkiyə, nə də bizim üçün yenilik deyil. Bu amildən hər zaman Türkiyəyə qarşı təzyiq metodu kimi istifadə ediblər. ABŞ-ın ştatlarının böyük əksəriyyəti ayrı-ayrılıqda saxta "soyqırımı" tanıyıblar. Dünyanın bəzi ölkələrinin parlamentləri də bu addımı atıb. Türkiyəyə bunun heç bir təsiri olmayıb, bundan sonra da olmayacaq. Ancaq biz hər zaman bu saxta erməni iddialarına qarşı Türkiyə ilə birlikdə mübarizə aparmışıq. Təbii ki, ölkələr belə addımları atarkən Azərbaycanın da reaksiyasını nəzrə almalıdırlar. Mən Böyük Britaniyanın ABŞ-ın səhvini təkrar edəcəyinə inanmıram. Çünki onları istər Azərbaycan, istərsə də Türkiyə ilə bağlayan daha ümdə maraqlar var".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Rusiya gömrüyü Ermənistandan yollanan 21 ton "mavi" pendiri geri qaytarıb. Erməni mediasının məlumatına görə, "Spayka" erməni şirkətinin yeni açılan pendir fabrikində istehsal olunan 21 ton mavi pendir "Yuxarı Lars" keçid məntəqəsində 24 gün ərzində saxlandıqdan sonra Rusiya gömrükçüləri tərəfindən geri qaytarılıb.**

# Ermənistanın "Spayka" pendiri ilə bağlı Rusiyanın jesti - siyasi təzyiq motivlərindən də danışılır...




## *Ramil Hüseynov: "Belə bir addımın atılması Kreml tərəfindən həyata keçirilən siyasi təzyiqin tərkib hissəsi sayıla bilər"*

Erməni tərəfinin səylərinə baxmayaraq, Rusiya tərəfi sözügedən pendirin ölkəyə buraxılmasına rədd cavabı verib.

Məlumata görə, noyabrın 5-də Rusiya gömrükçüləri yük maşınının sürücüsünə Rusiyaya pendir keçirə bilmədikləri barədə şifahi şəkildə məlumat veriblər. Çünki pendirin Orta Asiya və Cənub-Şərqi Avropada istehsal olunduğu barədə ekspert rəyi alıblar. Daşıyıcı tərəf isə pendirin Ermənistanda istehsal olunduğunu iddia edir. Ancaq hələ də şirkətə ekspert rəyi verilməyib. Avropada istehsal olunan pendirlərin idxalına Rusiyada qadağa var. Erməni mətbuatı Rusiyanın bu addımına qəzəblə reaksiya verib. Onlar bunu onunla əsaslandırmağa çalışırlar ki, Rusiya Gömrük Xidmətinin əməkdaşları da həmin zavodda olub, pendir fabrikinin şəraiti ilə tanış olublar. Belə olan halda, pendir niyə geri qaytarılıb?

Bu onu göstərir ki, Rusiya ilə Ermənistan arasında bir sıra məsələlərə bağlı fikir ayrılıqları tərəflərin bir-birinə qarşı ara-sıra siyasi təzyiq vasitələrini işə salmasına gətirib çıxarır. Bir müddət əvvəl Ermənistan Rusiya şirkətini hərbi tenderdən kənarlaşdırdı. Digər tərəfdən, Rusiya Dəmir Yolları (RDY) Ermənistanın dəmir yolu şəbəkəsinin idarə olunması ilə bağlı sazişin müddətini uzatmaq istəmir. Bəzi məlumatlara görə, Rusiya bu sazişi ləğv edə bilər. Bununla belə, Ermənistanın Avrasiya İqtisadi İttifaqının üzvü olmasına baxmayaraq, bu ölkənin sürücülük vəsiqələri Rusiyada tanınmır. O baxımdan, "Spayka" pendirinin geri qaytarılması Rusiyanın Ermənistana yönəlik növbəti siyasi təzyiqi sayıla bilərmi? Yəni bunun məhz siyasi motivlərlə bağlı olduğuna ekspertlər necə yanaşırlar?

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, Ermənistan istehsalı olan pendirin geri qaytarılması Kreml tərəfindən həyata keçirilən siyasi təzyiqin tərkib hissəsi sayıla bilər: "Bununla bağlı bir sıra nümunələr gətirmək olar. Məsələ ondadır ki, Kreml Paşinyana etibar etmədiyi üçün, Ermənistan hakimiyyətinin bəzi gözlentilərinə konkret cavab vermir. Qeyri-müəyyən vəziyyət yaradaraq Paşinyanı intizarda saxlayırlar.

*"Qeyri-müəyyən vəziyyət yaradaraq Paşinyanı intizarda saxlayırlar"*

Məsələn, Rusiya Dəmir Yolları Ermənistanın dəmir yolu şəbəkəsinin idarə olunması ilə bağlı sazişin müddətini uzadıb-uzatmayacağı ilə bağlı konkret heç bir açıqlama vermir. Bununla yanaşı, Ermənistanın ən böyük gözləntisi qazın qiyməti ilə bağlıdır. Bu barədə də hələ heç bir razılıq ortada yoxdur. Paşinyan çalışdı ki, Putin Aİİnin tədbiri ilə bağlı İrəvanda olanda bununla bağlı razılıq əldə etsin, amma alınmadı.

Vəziyyət o yerə gəlib çatıb ki, Paşinyan dekabrda Moskvaya işgüzar səfər edəcək. Çox güman ki, əsas müzakirə olunan məsələlərdən biri də qazın qiyməti ilə bağlı olacaq. Ermənistan hakimiyyəti bununla bağlı çox narahatdır. Yuxarı Lars keçidində pendirə qoyulan məhdudiyyət göstərdi ki, Kreml Paşinyan hakimiyyətinə siyasi təzyiqlər göstərməkdə maraqlıdır. Belə olmasaydı, o zaman 21 ton pendirdən ötrü belə qərar verilməzdi".

***Vidadi ORDAHALLI***

**"Qarabağ klanı" ilə "İrəvan klanı" arasında gərginləşən mübarizə Ermənistanı sürətlə yeni daxili qarşıdurmaya doğru aparmaqdadır. Real vəziyyət göstərir ki, artıq işğalçı ölkədə klanlar arasında qarşıdurma pik həddə çatıb. Yaranmış vəziyyətdə "Qarabağ klanı" sabiq prezident Robert Köçəryan ətrafında qüvvələrini cəmləşdirməkdə davam edir.**

# Köçəryan Paşinyanın ABŞ-la siyasi bağlılığına dair Rusiyaya maraqlı mesaj verdi...

Bundan ehtiyat edən hökumət isə sabiq prezidenti həbsdən buraxmağa tələsmir.

Bununla belə hesab ediilir ki, Nikol Paşinyanın əsas rəqibi məhz Robert Köçəryandır. Digər tərəfdən nəzərə almaq lazımdır ki, Rusiya da Paşinyana qarşı Köçəryanı dəstəkləyir. Proseslər göstərir ki, Köçəryan Rusiya tərəfindən tam dəstəklənir. Maraqlıdır ki, belə bir vaxtda Köçəryan maraqlı bir açıqlma ilə çıxış edərək, Ermənistanda indiki hakimiyyətin ABŞ-dan idarə olunduğunu bildirib. Bu isə, ekspertlərə görə, Rusiyaya verilmiş mesajdır ki, Paşinyanın devrilməsi üçün Moskva mümkün qədər tez hərəkətə keçsin. Köçəryan isə "Sputnik-Ermənistan"a müsahibəsində Paşinyan iqtidarının təmsilçilərinin məhz ABŞ-dan gələn göstərişlərə uyğun hərəkət etdiyini, onların maliyyəsinin okeanın o tayından gəldiyini vurğulayıb: "Siyasi subyektivliyi olmayan bir necə texnokrat nazir istisna olmaqla, hökumət və parlament çoxluğunun əsasını ABŞ-ın qrantları ilə qidalanan insanlar təşkil edir". O bildirib ki, hakimiyyətə media dəstəyini yalnız qərbyönümlü media verir, ön sırada isə "Azadlıq" radiosu gəlir: "Bütün hökumətyönümlü partiyalar, siyasətçilər və qeyri-hökumət təşkilatları açıq şəkildə anti-Rusiya yönümlüdür və ümumiyyətlə Qərbdən maliyyə alırlar. Baş nazir Nikol Paşinyan və terrorçu "nüfuzu" olan bir partiya (2016-cı ilin yayında Ermənistanda polis alayını ələ keçirən eyni silahlı qrupun üzvləri tərəfindən qurulmuş "Sasna Tsrer" partiyasını nəzərdə tutur) Rusiya hərbi bazasının Ermənistandan dərhal çıxarılmasını fəal şəkildə dəstəkləyir: "Faktiki olaraq, baş naziri dəstəkləyən bütün siyasi baza açıq şəkildə qərbyönümlüdür. Digər tərəfdən, Rusiya ilə əməkdaşlığı dəstəkləyən partiyalar və siyasətçilər hazırkı hökuməti dəstəkləmir və ona tamamilə etibar etmirlər.



Hər kəs inanır ki, Rusiyanın enerji mənbələrindən və bazardan asılılıqla üzləşən hakimiyyətin qərbyönümlü siyasi görüşləri merkantil praqmatizmə çevrilir". Onun sözlərinə görə, mənzərə həqiqətən paradoksaldır və hakim elitanın "geo-siyasi parçalanması"nın nə qədər davam etməsi mövcud şəraitdən asılı olacaq. Köçəryan hesab edir ki, Ermənistan konseptual inkişaf proqramları olmadan bir günlük qayğı, boş şüarlar, məhv olmuş xarici siyasətlə yaşayır.

Belə vəziyyətdə diqqət çəkən daha bir məqam isə Köçəryanın tərəfdarlarının aktivləşməsi, onun azadlığa buraxılmasına dair yenidən aksiyalara başlamalarıdır. Media da yazır ki, Ermənistanda hökumətin qanunsuz və siyasi motivli həbslərinə qarşı ictimai etirazlar artır. Ermənistanın söz azadlığının qorunması komitəsinin sədri Aşot Melkonyan bu xüsusda bildirib ki, Paşinyan hökuməti üçün münasib olmayan şəxslərin həbsə atılmasına son verilməlidir. Onun sözlərinə görə, "məxməri inqilab"dan sonra siyasi qərarla həyata keçirilən həbslər ölkədə söz və ifadə azadlığının pozulmasıdır, çünki hökumət yadfikirli insanlara qarşı hədsiz dözümsüzlük nümayiş etdirir. Melkonyan bildirib ki, son on ildə ölkə tarixində mətbuat azadlığının da bu cür kobud pozulması halı baş verməyib. O əlavə edib ki, Köçəryanın həbsdə saxlanması çox ciddi qanun pozuntusudur. Aşot Melkonyan xatırladır ki, Paşinyan hökuməti özünə rəqib hesab etdiyi digər yüksək vəzifəli şəxs - Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyan və onun ailə üzvlərinə qarşı siyasi təqibi də davam etdirir. Jurnalist Anjela Tovmasyanın ofisinə basqından sonra hüquq-mühafizə orqanları indi də məhkəmə sədrinin müavinlərinə qarşı saxtakarlıq maddəsi ilə ittiham irəli sürüblər. Digər tərəfdən, hökumət Robert Köçəryana qarşı ifadə verməkdən imtina edən Dövlət Mühafizə Xidmətinin rəisi Qriqori Ayrapetovu da işdən çıxarıb və onun haqqında cinayət işinin qaldırılacağı da istisna olunmur. Erməni politoloq Ağasi Yenokyan bildirir ki, bütün bu proseslər bir-birilə əlaqəlidir: "Hakimiyyət dəyişikliyi baş verdi ki, insanlar yaxşı yaşasın. Sonra deyildi ki, yaxşı yaşamaq üçün ədalət bərqərar olmalıdır, bunun üçün də Köçəryanı oturtmaq zəruridir, onları oturtmaq üçün isə Hrayr Tovmasyan Konstitusiya Məhkəməsinin sədri vəzifəsindən çıxmalıdır".

Yenokyan qeyd edib ki, hazırda ictimai rəyin ciddi manipulyasiyası gedir və hakimiyyət hüdudları keçib: "Bütün növ xətləri keçiblər və faktiki olaraq nəinki gizli fəaliyyətlərlə, həmçinin mümkün qədər ictiamiləşdirməklə keçiblər". Yenokyanın sözlərinə görə, cəmiyyətdə hətta 1937-ci ilin məşhur hadisələri ilə analoqlar verilir: "Cəmiyyətdə də bu alt instinktləri oyatmağa cəhd edilir, artıq barmaq izlərini yazmağa başlayırlar, "stukaçlar" ortaya çıxır. Hesab edirəm, bupisdir, mənəviyyatın elə bir kobud pozuntusudur ki, bundan sonra artıq heç nə təəccüblü olmayacaq. Bundan sonra siyasi cinayətlər, "1 Mart"lar təəccüblü olmayacaq. Hesab edirəm ki, hakimiyyət mənəviyyatın bütün hədlərini keçib". Analitik Narek Samsonyan isə qeyd edib ki, belə bir vəziyyət nə Levon Ter-Petrosyanın, nə Robert Köçəryanın, nə də Serj Sarkisyanın hakimiyyət illərində olub.

Paşinyana yaxın media orqanları yazır ki, əslində, Köçəryanın tərəfdarlarının aktivləşməsi, sabiq prezidentin özünün açıqlamaları Rusiyadan gələn siqnallar fonunda baş verir. Məsələn, "Aravot" qəzeti yazır ki, Moskva Paşinyanı qəbul etmir və bu səbəbdən Ermənistan daxilində özünə bağlı qüvvələri ona qarşı aktivləşdirib. Bu fonda isə hakimiyyətin nəzarətində olan mediada, eləcə də Paşinyanın yanında olan şəxslər tərəfindən Rusiyaya qarşı yeni ittiham dalğası başlayıb. Ermənistan parlamentinin deputatı Azad Arşakyan bu xüsusda qeyd edir ki, İrəvan Moskva ilə birdəfəlik haqq-hesab çəkməlidir: "Biz Rusiyanın qarşısında sual qoymalıyıq ki, ya bizim tərəfdaşımızsınız, düşmənlərimizin düşmənisiniz, ya da onların tərəfdaşı və bizim düşmənimizsiniz". Onun sözlərinə görə, Ermənistan onlardan qərar verməsini tələb etməlidir: "Əgər biz tərəfdaşıqsa, bu o deməkdir ki, maraqlarımız, strateji hədəflərimiz üst-üstə düşür. Amma reallıqda vəziyyət başqadır və Moskva İrəvanla tərəfdaşlıq münasibətlərində olmaq istəmir. Ona görə də ölkə daxilində vəziyyət sabitləşmir".

Bütün bunlar qarşıdakı günlər ərzində Ermənistanda ciddi qarşıdurmaların olmasını istisna etmir.

***Nahid SALAYEV***

**Prezidentin köməkçisi özünün "FB" səhifəsindəki məqaləni ölməz Əhməd Cavadın bu şeir parçası ilə başlayır:**

*Türküstan yelləri öpüb alnını*
*Söyləyir dərdini sana, bayrağım!*
*Üçrəngin əksini Quzğun dənizdən*
*Ərməğan yollasın yara, bayrağım!*

(Əhməd Cavad)

# Əli Həsənov bayrağımızın milli qürur mənbəyinə çevrilməsinin tarixi və siyasi-psixoloji əsaslarından yazdı

Görkəmli istiqlalçı şair Əhməd Cavadın bir zamanlar bu misralarla qürbətdən oxşayıb əzizlədiyi, doğma yarına-Azərbaycanına ərməğan kimi yollamaq istədiyi üçrəngli bayraq bu gün bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının qürur mənbəyinə, milli-mənəvi kimliyinə, millətin siyasi vizit kartına, ölkə vətəndaşlarının qeyrət və dəyanət simvoluna çevrilib...

Hər bir ölkə kimi, Azərbaycanın da tarixi və dövlətçilik ənənələri onun dövlət rəmzlərində və atributlarında öz əksini tapır. Müstəqil dövlət olaraq, onun dünyada öz məxsusi dövlət rəmzləri-bayrağı, gerbi, himni mövcuddur. Üçrəngli bayrağımız hazırda bizim əsas dövlətçilik rəmzimiz olaraq xalqın müstəqillik və suverenlik iradəsini, milli azadlıq və istiqlal arzularını özündə əks etdirir və Azərbaycanın müstəqilliyinin simvolu kimi çıxış edir.

Məlum olduğu kimi, üçrəngli dövlət bayrağımız ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə 1918-ci il noyabrın 9-da qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən sonra yeni qurulan hökumət bu bayraqdan imtina etmişdir. İkinci dəfə üçrəngli dövlət bayrağı 1990-cı il noyabrın 17-də ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında Məclisin qərarı ilə bərpa olunmuş və Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edilmişdir. Həmin sessiyada Muxtar Respublika Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında "üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında" vəsatət qaldırmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxmış və "üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi" haqqında qərar vermişdir. Müstəqil Azərbaycan dövlətinin qurucu lideri, ulu öndər Heydər Əliyev bayrağımızı və digər dövlət rəmzlərimizi həmişə yüksək tutaraq, onları xalqımızın, dövlətimizin müqəddəslik və əbədiliyinin, sarsılmazlıq və yenilməzliyinin simvolu kimi dəyərləndirmişdir. Ümummilli lider söyləyirdi ki, "biz dövlət rəmzlərimizi- himnimizi, bayrağımızı, gerbimizi özümüz qədər sevməliyik, çünki onlar bizim vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzləridir".



Milli dövlət və istiqlal rəmzlərimizə hədsiz sevgi nümayiş etdirən Prezident İlham Əliyev ümummilli liderin siyasi kursuna sadiq qalaraq dövlət suverenliyinin rəmzləri sayılan bayrağımızı, gerbimizi və himnimizi həmişə yüksək tutmuş, onların təbliği ilə bağlı xüsusi tədbirlər həyata keçirmişdir. 2007-ci il noyabrın 17-də Prezidentin imzaladığı sərəncamla Bakı şəhərində Dövlət Bayrağı Meydanı təsis edilmiş, 17 noyabr 2009-cu il tarixli Fərmanı ilə hər il noyabr ayının 9-u Azərbaycanda "Milli Bayraq Günü" kimi rəsmi bayram olaraq qeyd olunmağa başlanmışdır. Şəxsən ölkə başçısının və rəhbərlik etdiyi hökumətin dövlət rəmzlərinə, rəsmi atributlara, suverenlik göstəricilərinə bu cür ehtirama yanaşması, əlbəttə, müvafiq olaraq bütün Azərbaycan cəmiyyətinin, xarici ölkələrdə yaşayan soydaşlarımızın da dövlətçilik simvollarına sevgisini daha da artırmış, hər bir azərbaycanlıda öz dövləti ilə bağlı qürur hissini yüksəltmiş, xalqla dövlət arasındakı vəhdəti daha da gücləndirmişdir. Xüsusən, 2010-cu il sentyabrın 1-də Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimindəki nitqində Prezident İlham Əliyevin səsləndirdiyi: "Bayrağımız bizim qürur mənbəyimizdir, bayrağımız bizim canımızdır və ürəyimizdir. Bu gün Azərbaycanın hər yerində dövlət bayrağı dalğalanır. Azərbaycanın ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız hələ də işğal altında olan torpaqlarda qaldırılacaq. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndində, Şuşada dalğalanacaq. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq"- kimi duyğusal fikirlər hər bir azərbaycanlının və bütün soydaşlarımızın qəlbini riqqətə gətirmişdir.

Dövlət rəmzlərinə, xüsusən də bayrağımıza Azərbaycanda həmişə müqəddəs atribut kimi yanaşılmışdır. 2010-cu ildən başlayaraq Milli Bayraq Gününün ayrıca bayram kimi qeyd edilməsi ölkə başçısının və vətəndaşlarımızın öz dövlətçiliyinə və suverenliyinə, dövlət rəmzlərinə və müstəqillik simvollarına yüksək münasibətinin əyani təzahürüdür. İnsanlarımız Milli Bayraq Gününü millətimizin, xalqımızın azadlıq və istiqlal ideallarının, milli varlığının, bəşər sivilizasiyasında özünəməxsus milli-mənəvi dəyərlərə malik olmasının təcəssümü kimi dəyərləndirir, bayrağımızı ölkəmizin ərazi bütövlüyü və suverenliyinin, dünya azərbaycanlılarının mənəvi birliyinin, doğma Vətənlə vahidliyinin simvolu kimi qəbul edirlər.

*Əli HƏSƏNOV*




# ABŞ-ın ATƏT-dəki səfiri Qarabağ münaqişəsinin tərəflərini tez zamanda konkret addımlar atmağa çağırdı

**ABŞ ATƏT Minsk Qrupunun işinə böyük əhəmiyyət verir və Dağlıq Qarabağ münaqişəsinin tam nizamlanmasına sadiqliyini bildirir. "Trend"in məlumatına görə, bunu ABŞ-ın ATƏT-dəki səfiri Ceyms Gilmor təşkilatın Daimi Şurasının iclasında deyib.**

O, son aylarda qoşunların təmas xəttindəki itkilərdən narahat olduqlarını ifadə edib: "Bu, münaqişə çərçivəsində davam edən insan itkilərini göstərir və yerlərdə, eləcə də paytaxtlarda gərginliyi artırır. Bu, həm də nizamlama perspektivlərini azaltmaqla inamsızlıq və düşmənçiliyi artırır. Eyni zamanda Azərbaycan və Ermənistan liderləri və xarici işlər nazirləri arasında konstruktiv əlaqələr ümid verir. Əlaqələrin səviyyəsi nəticə verə bilər və verməlidir. Biz tərəfləri ölkələrin əhalisini sülhə hazırlamaq və gərginliyi azaltmaq üçün bu il ərzində müzakirə olunan konkret humanitar və təhlükəsizlik tədbirləri barədə razılığa gəlməyə çağırırıq".

C.Gilmorun sözlərinə görə, bu məsələlər barədə razılıq kifayət deyil: "Biz tərəfləri tez bir zamanda konkret addımlar atmağa çağırırıq".

Səfir əlavə edib ki, tərəflərin əhalini sülhə hazırlamağının vaxtı çatıb: "ABŞ azərbaycanlılar və ermənilər arasında etimadın möhkəmləndirilməsi və dialoqun genişləndirilməsi üzrə tədbirləri dəstəkləyir.

**Dialoqda iştirak edənlər bunu azad və qorxusuz şəkildə, öz yurdlarına qayıtmaqları üçün ittiham olunmadan etməlidirlər. Münaqişənin hərbi yolla həlli ola bilməz və status-kvo qəbulolunmazdır".**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Zabitlər və generalitet Paşinyana qarşı, "baş nazir ordunu qəsdlə zəif salır" ittihamı - əsl səbəb isə Azərbaycanın təcavüzə məruz qalması...

**Dağlıq Qarabağ münaqişəsi hərbi müstəvidə həll ediləcəyi təqdirdə Ermənistanı böyük məğlubiyyətin gözlədiyini bu gün düşmən ölkənin özündə də etiraf edənlərin sayı kifayət qədərdir. Belə bir vaxtda Ermənistanda ciddi narahatlıq predmetinə çevrilən məqamlardan biri isə hakimiyyətlə ordu arasında dərinləşən qarşıdurmadır.**

Erməni mediası yazır ki, baş nazir Nikol Paşinyan dönəmində ordu ilə iqtidar arasında ciddi ziddiyyətlər yaranıb. Bu isə nəticə etibarı ilə ordunun daha da zəifləməsinə gətirib çıxarıb.

"Qraparak" qəzeti öz mənbələrinə istinadən yazır ki, Ermənistan Müdafiə Nazirliyinin əksər generalları, əvvəlki kimi, Nikol Paşinyan hökumətindən narazıdır. Onlar ordunun hədəfə çevrildiyini bildiriblər. Digər tərəfdən, məlum aprel döyüşlərini araşdıran komissiyanın fəaliyyəti isə təkcə generallar yox, digər zabit heyətini də narazı salıb. Xatırladaq ki, komissiya 6 ay müddətinə yaradılıb və ötən 4 ay ərzində hansısa ciddi nəticə əldə olunmayıb. Komissiyanın rəhbəri Andranik Köçəryan isə komissiyanın işinin daha yarım il uzadılmasını xahiş edib. Bütün bunlar zabit heyətini ciddi şəkildə narazı salır. Cəbhədə olan yüksək vəzifəli erməni zabitlərdən biri bildirib: "İndi hamımızla əlaqə qururlar. Birimizdən "Bəli, Xaçaturov əmri gec verdi" deməyimizi eşitməyə çalışırlar, Seyran Ohanyan bunu deyib, onu deyib... Bir şey "ələ keçirmək" üçün bir şey söyləməyimizə çalışırlar. Cəbhədə dayanan zabitə qarşı bu nə münasibətdir?". Zabitlərin böyük əksəriyyəti bildirir ki, aprel döyüşlərinin araşdırılması davam etsə, ordudan istefa verəcəklər. Zabitlərin narazılığı "Mənim Addımım" fraksiyasına da çatıb.

Erməni siyasi şərhçi Naira Ayrumyan bildirib ki, aprel döyüşünün mahiyyətini öyrənmək yalnız Xaçaturov və digərlərinin hərbi əməliyyatlara nə dərəcədə hazır olduqlarını öyrənməklə məhdudlaşa bilməz: "Belə çıxır ki, Azərbaycana, Rusiyaya, həmin dövrün siyasi rəhbərliyinə suallarımız yoxdur. Ancaq ölkəni müdafiə edən zabitlərə suallarımız var. Yoxsa parlamentin artıq məlum olanları aydınlaşdırmaqdan başqa işi yoxdur? Artıq hansı hissədə nələrin çatışmadığı çoxdan bəllidir və cavabdehlər artıq çoxdan hakimiyyətdə deyillər. Zabitləri rahat buraxın, işlə məşğul olun. Bütün bunların ordu rəhbərliyində "özünüzkülərə" yer boşaldılması üçün edildiyini düşünməyə məcbur etməyin. Onsuz da yaranmış vəziyyət ordu ilə hakimiyyət arasında narazılığı artırır. Belə olan halda aprel döyüşləri yenidən təkrarlansa, erməni ordusunun Azərbaycanın qarşısına çıxa biləcəyi ciddi sual altında olacaq". Eyni mövqe erməni şərhçi Roza Mikaelyan tərəfindən də sərgilənir: "Ermənistan parlamentində aprel döyüşlərini araşdıran komissiya tərəfindən hərbçilərin sorğu-sual edilməsi, onların böyük siyasi hesablaşma oyunlarına cəlb edilməsi hər saniyə müharibə əməliyyatlarının yenidən başlaya biləcəyi bir ölkədə nə dərəcədə düzgündür?". O qeyd edib ki, ordudan, xidmətdən uzaq, ümumiyyətlə taktiki incəliklərə sahib olmayan şəxslər tərəfindən cəbhədə xidmət edən zabitlərin daim sorğu-suallara "cəlb olunması" ordunu zəiflədir: "Bu, ilk növbədə çətin şəraitdə öz xidməti vəzifəsini yerinə yetirən hərbçilərə hörmətsizlikdir, elə deyil? Digər tərəfdən belə hal ordunun döyüş qabiliyyətini aşağı salmaqdan başqa heç nəyə xidmət etmir".

Ermənistanın "1in.am" portalı da yazır ki, baş verənlər hakimiyyətlə ordu arasında ziddiyyətləri daha da dərinləşdirir: "Ermənistan müdafiə naziri David Tonoyan bunları inkar etməyə çalışır və vurğulayır ki, bir sıra mətbəx söhbətləri toplanır və baş nazirə qədər gedib çatır. O, generalitetin narazılığı haqqında verilən suallara belə cavab verib.

Bu mövzuya yaxınlarda öz sosial şəbəkə söhbətində ordu və generalitetin "zəifləməsi" ittihamlarından danışan baş nazir Nikol Paşinyan da toxunub. Nikol Paşinyan iddia edib ki, ilyarım ərzində heç bir hakimiyyət tərəfindən inqilabdan sonrakı dövrdə ordu və hərbçilər üçün edilən qədər edilməyib. Amma faktiki, müdafiə nazirinin də qeyd etdiyi kimi, "mətbəxdə toplanmalar" da mövcuddur. Burada nazir, guya narazılığın olması haqqında məlumatların baş nazir Paşinyana çatdırılmasına cəhd edən bir dairənin mövcud olduğunu nəzərdə tutur. Başqa sözlə, nazir Tonoyan işarət edir ki, guya "baş nazirin ordunu zəiflətməsi və bunun narazılıq yaratması" fikri yalnız keçmiş hakimiyyət sisteminin apardığı informasiya-təbliğat işinin mahiyyəti deyil, bundan əlavə, belə narazılığın olması haqqında təəssürat yaratmağa çalışan "mətbəx dairələri" də mövcuddur.

Tonoyan, başqa sözlə, işarə edir ki, baş nazirdə müdafiə nazirinin işindən narazılığın yetişməsi üçün hər şeyi etməyə cəhd edən dairələr mövcuddur. Çünki orduda baş nazirin işindən narazılıq varsa, baş nazirsə orduya diqqət planında nə qədər dəyişiklik edildiyindən danışırsa, yekunda belə alınır ki, bu səylər müdafiə naziri tərəfindən effektiv reallaşdırılmır. Söhbət "mətbəx səyləri"ndən gedirsə, aydındır ki, burada hakimiyyətin "mətbəxi" nəzərdə tutulur. Çünki keçmiş sistem mövcud hakimiyyətdən narazılıq məsələsində iqtidara qarşı kifayət qədər açıq, heç bir "mətbəx sirri"saxlamadan hərəkət edir.

Müdafiə nazirinə qarşı edilən "kulinariya" səylərinin nə ilə şərtləndiyini, əlbəttə, güman etmək mümkündür. Məlum olduğu kimi, istənilən hakimiyyət dövründə həmişə zaman keçdikcə o hakimiyyətin adı ilə və içən, "siyasi parazitlik" edən qruplar formalaşır. Amma bu vəziyyət həm də ordu ilə hakimiyyət arasında uçurumu dərinləşdirir. Təbii ki, bu hal da ordu üçün müsbət heç nə vəd etmir. Bax bu da Qarabağ məsələsində olduqca ciddi təhdiddir. Çünki Azərbaycan məsələni hərb yolu ilə çözmək üçün intensiv hazırlıqlar aparır". Beləliklə, bütün bu qeyd edilənlər hakimiyyətlə ordu arasında həqiqətən də ziddiyyətlərin olduğunu təsdiq edir. İndi Ermənistanın qorxudan budur ki, belə vəziyyətdə Azərbaycan ərazi bütövlüyünün bərpası üçün savaşa başlasa, Ermənistan 2016-cı ilin apreli ilə müqayisədə daha böyük məğlubiyyətə düçar olacaq. Ermənistanın keçmiş prezidenti Robert Köçəryan da bunu istsina etmir. O bildirir ki, əslində, Paşinyan savaşa başlamaq üçün Azərbaycana lazımi səbəblər də verib: "Ermənistan tərəfinin kobud səhvləri üzündən Qarabağ danışıqlarında mövqelərimizin zəifləməsi müşahidə olunur. Baş nazirin "Qarabağ Ermənistandır və nöqtə!" ifadəsi danışıqları xalqların öz müqəddəratını təyin etmə prinsipindən uzaqlaşdırmaqla bizim üçün arzuolunmaz müstəviyə apardı". Onun fikrincə, Ermənistan rəhbərliyinin ziddiyyətli açıqlamaları, nizamlanmaya dair açıq şəkildə ortaya qoyulmuş mövqenin olmaması erməni tərəfinin konstruktivliyinə şübhə yaradır: "Üstəlik, mövqeyimizi bu cür ifadə etmək münaqişənin həll prosesini vasitəçilik missiyasından kənara çıxarır. Atəşkəs potensialı da azalıb, çünki dünya birliyi arasında qlobal ziddiyyətlərin böyüməsi səbəbindən sülhün qorunması üçün imkanlar məhdudlaşır. Həm də başa düşməliyik ki, budəfəki müharibənin miqyası və dağıdıcı nəticələri indiyə qədər baş verənlərdən müqayisəedilməz səviyyədə olacaq. Münaqişə tərəfləri həddən artıq silahlanıb. Bəlkə də hazırkı hökumət bunu vaxtında dərk edəcək. Qarabağ və Ermənistanın siyasi elitaları arasındakı mürəkkəb münasibətlər, müharibə qəhrəmanlarının ruhdan düşməsi, döyüşlərdə iştirak edən generalların aşağılanması, həlak olmuş hərbçilərin xatirəsinə hörmətsizlik ölkəmiz üçün son dərəcə təhlükəlidir". Robert Köçəryan bu fonda son illərdə Azərbaycan Silahlı Qüvvələrinin hissolunacaq dərəcədə güclənməsinə də diqqət çəkib və bunun da ehtimal olunan savaşda Ermənistanın lehinə olmayacağını bildirib. O hesab edir ki, ordu ilə ziddiyyətini dərinləşdirən Paşinyan silahlı qüvvələri acınacaqlı bir duruma salıb. Ermənistanın "armenianreport" saytı da ordu ilə bağlı ağır bir durumun hökm sürdüyünü vurğulayır: "Xoş təsəvvür yaradan arzularla ordu-xalq münasibətlərini bərpa etmək mümkün deyil. Bugünkü mənzərəyə baxdıqda görmək olur ki, Ermənistan ordusuna hakimiyyətin laqeyd münasibəti, orduda korrupsiya və digər hallar bu münasibətlərin qurulması yolunda böyük səddir.

Ermənistan ordusunda islahatlar yenə kosmetik xarakter daşıdı. Tonoyanın söylədiyinin əksinə olaraq, heç bir köklü iş aparılmır. Ordu ilə ictimaiyyət arasında münasibətlərin yoluna qoyulması üçün islahatlar şəffaf şəkildə həyata keçirilməlidir. Silahlı qüvvələrin modernləşməsi üçün böyük vəsaitin xərcləndiyinin söylənməsinə baxmayaraq, ordunun acınacaqlı vəziyyəti göz qabağındadır. Ermənistan ordusundakı korrupsiya və özbaşınalıq "islahatlar" fonunda yüksək templə artır. İslahatların reallaşdırılması üçün qanunverici baza da yoxdur.

Bu istiqamətdə Ermənistan parlamentində heç bir təklif səsləndirilməyib. Orduda problemlər gündən-günə artır. Bu problemlərdən də daha çox cəmiyyətin yoxsul təbəqəsi əziyyət çəkir. Təmas xəttində yoxsul insanların övladları ölür. Əsgərlər komandirlərin və özlərindən rütbəcə yüksək olanların pis davranışları ilə üz-üzə qalırlar. Bütün bunlar sosial müzakirələrin aparılmasını mümkünsüz edir. Üstəgəl, hakimiyyətlə bir sıra generallar arasında münasibətlərin pis həddə olması prosesə daha dağıdıcı təsir göstərir. Bu isə Qarabağ məsələsində Ermənistanın mövqeyini zəiflədən haldır". Bütün bunlar bir daha təsdiq edir ki, Ermənistanda ordunun da çöküşü geniş vüsət alıb və bu da düşmənin Azərbaycana müqavimət imkanlarını daha sürətlə sarsıdır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Son bir ildə Ermənistanın daimi əhalisi 11 min 700 nəfər azalıb. Bu barədə Ermənistan Statistika Komitəsi məlumat yayıb. Məlumata görə, cari ilin 1 oktyabr tarixinə Ermənistanın daimi əhalisi 2 milyon 957 min 500 nəfər olduğu halda, 2018-ci ilin eyni dövründə bu rəqəm 2 milyon 969 min 200 nəfər olub.**

# Son bir ildə 11700 erməni Ermənistanı tərk edib - "məxməri inqilab" ölkənin boşalmasını önləyə bilmədi...

## Elşən Manafov: "Ermənistan əhalisinin ölkədən köç etməsi həm sosial, həm də siyasi və hərbi amillərlə bağlıdır"



Bölgələrdə vəziyyət daha acınacaqlıdır. Ermənistanın kənd yerlərində yaşayan əhalinin ümumi sayı 1073,8 min nəfərdir. Bu isə ilin əvvəli ilə müqayisədə 6,1 min nəfər azdır. Belə ki, yalnız Lori bölgəsində son bir ildə əhali 2300 nəfər azalıb. Yeri gəlmişkən, Alaverdi şəhərində yerləşən misəritmə zavodu uzun müddət işləməyib və müəssisənin bağlanmasından sonra 650 nəfər işsiz qalıb. Şirak bölgəsində mənzərə daha da pisdir. Burada əhali 3300 nəfər azalıb.

Demoqrafik problemi həll etmək üçün hökumətin hansı addımlar atmasına gəlincə, Baş nazir Nikol Paşinyanın sözçüsü Vladimir Karapetyan deyib: "Yazılı formada müraciət edin, hökumətin bu problemin həlli istiqamətində nə etdiyinə cavab verəcəyəm".

Yeri gəlmişkən onu da qeyd edək ki, Nikol Paşinyan hakimiyyəti "məxməri inqilab"dan sonra xaricdəki ermənilərin kütləvi şəkildə Ermənistana axın edəcəyini, 2050-ci ildə ölkə əhalisinin 5 milyon nəfərə çatacağını təntənəli şəkildə elan etmişdi. Ancaq məlum olur ki, "məxməri inqilab" ölkə əhalisinin azalması prosesini önləyə bilməyib. Paşinyan hakimiyyətə gələndən sonra ölkə əhalisinin sayı azalıb və bu proses davam edir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Elşən Manafovun sözlərinə görə, mövcud iqtidarın bu məsələ ilə bağlı verdiyi vədlərin populizmə söykəndiyi bir daha aydın oldu. Politoloq hesab edir ki, Ermənistanda əhalinin azalmasının səbəbləri həm sosial, həm də siyasi-hərbi amillərlə bağlıdır: "Paşinyan hakimiyyətinin həyata keçirdiyi yarıtmaz siyasət ölkə əhalisinin müəyyən hissəsinin ötən bir ildə Ermənistanı tərk etməsinə gətirib çıxarıb. Ermənistanda əhalinin azalması, insanların ölkəni tərk etməsinin səbəbləri bəllidir. Bu bir tərəfdən gündən-günə Ermənistanda əhalinin maddi durumunun ağırlaşması ilə bağlıdır, digər tərəfdən əhalinin mütləq əksəriyyətinin korrupsiyadan əziyyət çəkməsi ilə əlaqədardır. İstər əvvəlki, istərsə də indiki hakimiyyətin dönəmində ölkədə korrupsiya azalmayıb. Baxmayaraq ki, Paşinyan korrupsiya ilə mübarizə ilə bağlı bir sıra bəyanatlar verirdi. Çox keçmədən məlum oldu ki, Paşinyanın bu yöndə səsləndirdiyi fikirlər dekorativ xarakterlidir. Ermənistanda həbs edilən bəzi məmurlar əsasən aşağı ranqda olanlardır. Reallıq ondan ibarətdir ki, "məxməri inqilab"dan sonra Paşinyan hakimiyyəti ölkədə əhalinin azalması prosesinin qarşısını ala bilmir. Ümumilikdə, demoqrafik duruma təsir göstərən amillər təbii və mexaniki amillərə bölünür. Maddi durumun aşağı olması səbəbindən Ermənistanda gənc ailələr bir uşaqla kifayətlənirlər. İkinci və üçüncü uşaqla bağlı tərəddüd edirlər. Mexaniki amillərlə də bağlı vəziyyət Ermənistanın xeyrinə deyil. Yəni ölkə əhalisi xaricdən gələnlərin hesabına artmır. Çünki ölkəyə axın yoxdur".

*"Paşinyan hakimiyyəti ölkədə əhalinin azalması prosesinin qarşısını ala bilmir"*

E. Manafov onu da qeyd etdi ki, Ermənistanda Azərbaycanla güclü bir müharibənin baş verə biləcəyi ilə bağlı ictimaiyyətdə bir çaşqınlıq var: "Azərbaycan hakimiyyətinin yeritdiyi siyasət göstərir ki, heç vaxt torpaqların işğal altında qalması faktı ilə razı olmayacaq. Yeni bir müharibənin başlaya biləmə ehtimalı erməni gənclərini orduya getməkdən yayındırır. Xüsusən onlar Qarabağda xidmət etməkdən boyun qaçırırlar. Bu amil də gənclərin ölkəni tərk etməsinə təsir edir. Ona görə də Ermənistan əhalisinin ölkədən köç etməsi həm sosial, həm də siyasi və hərbi amillərlə bağlıdır".

***Vidadi ORDAHALLI***

---

**Türkiyə ərazisində yerləşən Ağrı dağının tarixən ermənilərlə heç bir əlaqəsi olmayıb. Bir tərəfi Qərbi Azərbaycan ərazisinə düşən Ağrı dağının ermənilər tərəfindən "Ararat" adlandırıldığı məlumdur.**

# Ermənilər məşhur Ağrı dağını da "Ararat" adı ilə "Bibliyalaşdırır"...

## Qasım Hacıyev: "Ermənilər Ağrı dağını "Ararat" kimi təqdim etməklə, "Ararat"ın adının Bibliyada çəkildiyi iddiasını ortaya atmaqla yeni yalan və saxtakarlıq əməllərini ortaya qoyurlar"



Ermənilər idda edirlər ki, tarixən bu dağın adı "Ararat" olub və o "ermənilərə aiddir". Əslində isə tarixdən bu dağın adı bir neçə formada, şəkildə keçir, onlardan biri də erməni dilinə uyğun gəlmir. Səlcuqlar dövründə Egri dağ, farslar ona Kuh-e-Nüh adları verib, Strabonun coğrafiyasında isə adı Abos kimi qeyd edilib.

Məlumat üçün bildirək ki, 5137 metr hündürlüyə malik olan Böyük Ağrı dağı Anadolu yarımadasının və Kiçik Qafqaz dağ sisteminin ən yüksək zirvəsidir. Dağ 4000 metrədək Kaynozoy tipli bazalt, daha sonra andezit süxurlarından təşkil olunub. 4250 metrdən başlayaraq zirvəsi sayı 30-dan çox daimi buzlaqlarla örtülüb. Ən iri buzlağın uzunluğu 2 km-ə çatır. Böyük Ağrı dağının yamaclarında Sərdarbulaq yaylası və 3896 m yüksəkliyə malik Kiçik Ağrı dağı yerləşir. Hər iki dağın ətəyinin birlikdə çevrəsi təqribən 128 km. təşkil edir. Dini ədəbiyyatda Nuhun gəmisinin saya oturduğu ilk torpaq bu dağın zirvəsi olub.

Ermənilərin "Ararat" adlandırdığı dağın Bibliya dağı olduğunu qeyd edirlər. Onlar iddia edirlər ki, guya ki, bu dağ haqqında "Ararat" adı ilə Bibliyada söhbət açılır.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, müqəddəs kitablarda, eləcə də Bibliyada bu dağın adı "Ararat" kimi çəkilməyib. Onun sözlərinə görə, ermənilərin Ağrı dağını "Ararat" adlandıraraq onunla bağlı müxtəlif rəvayətlər uydurması faktdır. Amma bu dağın əsl adı Ağrı dağdır. "Bilirsiniz ki, Ağrı dağı biz türklərin hər zaman qürur duyduğu bir ucalıqdır. Ermənilər Qərbi Azərbaycan ərazilərinə köçürüldükdən sonra oradakı bütün dağ, yer, yurd adlarını dəyişdirmək yolunu seçdilər. Beləliklə, ermənilər onlara heç bir aidiyyəti olmayan Ağrı dağının da adını dəyişdirib "Ararat" etdilər. Ağrı dağı haqqında müxtəlif kitablarda, o cümlədən, Bibliyada söhbət açılır. Amma Bibliyada bu dağın adı "Ararat" kimi qeyd edilmir. Bilirsiniz ki, bu da Nuh Peyğəmbərlə bağlıdır. Müqəddəs kitablarda qeyd edilir ki, Nuhun gəmisi gəlib Ağrı dağda dayanır və onlar burada məskən salırlar, insanlar bu dağdan yayılır. Amma Bibliyada Ağrı dağın adı "Ararat" olaraq çəkilmir. Ermənilər Ağrı dağını "Ararat" kimi təqdim etməklə, "Ararat"ın adının Bibliyada çəkildiyi iddiasını ortaya atmaqla yeni yalan və saxtakarlıq əməllərini ortaya qoyurlar. Ağrı dağının da, Bibliyada adı keçən dağın da ermənilərə heç bir aidiyyəti yoxdur. Bibliyada Ağrı dağının və Əshabi-Kəhfin adı çəkilir, "Ararat"ın yox. Yəni bu kitabda onlarla bağlı məlumat var" - deyə Q.Hacıyev vurğuladı.

O, həmçinin, qeyd etdi ki, bir neçə həftə əvvəl Türkiyənin İqdır şəhərində olarkən Ağrı dağını müşahidə edib və onun qarlı zirvəsini fotolentə köçürüb. Q.Hacıyevin sözlərinə görə, Ağrı dağ qədim türk dağıdır və bu bizim əbədi ucalıq rəmzlərimizdən biridir. "Ermənilər "Ararat"ın adının Bibliyada keçdiyini iddia etməklə, əslində, bir məqsəd güdürlər. Onların məqsədi odur ki, Bibliyanın adını çəkməklə xristian dövlətlərinin köməyilə uzun illərdir iddia etdikləri Türkiyə və Naxçıvan ərazisini ələ keçirsinlər. Amma onların bu iddiası cəfəngiyyatdan başqa bir şey deyil" - deyə Q.Hacıyev bildirdi.

***İradə SARIYEVA***

**Azərbaycanın yerləşdiyi ərazi bu gün Avropa və Asiyanı birləşdirən, strateji ticari-iqtisadi dəhlizlərin qovuşduğu məkan kimi indi bütün dünyanın diqqət mərkəzindədir. Bu fonda Azərbaycanın reallaşdırdığı bir sıra qlobal layihələr, o cümlədən "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri təkcə regional deyil, həmçinin beynəlxalq miqyaslı infrastrukturdur.**

# Azərbaycanın logistika siyasəti Avrasiyada güclü dəyişdirici faktora çevrilir

Məsələn, "Şimal-Cənub" dəhlizi təkcə İranı Rusiya ilə birləşdirmir, burada daha çox Hindistanı Avropa ilə bağlayan nəqliyyat xəttindən söhbət gedir.

Bunlarla bərabər, beynəlxalq logistik mərkəzlərin yaradılması, qədim İpək yolunun bərpası "Şərq-Qərb" dəhlizində də dünyada böyük maraq yaradır. Amma Azərbaycan təkcə belə dəhlizlərlə tranzit məkana çevrilməklə fəaliyyətini məhdudlaşdırmır. Real vəziyyət göstərir ki, həm öz ixrac imkanlarını artırmaq, həm də üzərindən keçən tranzit dəhlizlərinin işləklik səviyyəsini artırmaq üçün Azərbaycan qonşu ölkələrdə, ilk növbədə İran və Rusiyada öz sərmayəsi hesabına logistik mərkəzlərin yaradılmasına da xüsusi diqqət yetirir. Məsələn, "Şimal-Cənub" nəqliyyat dəhlizinin yüksək effektivlyini təmin etmək məqsədilə Azərbaycan İranın Astara şəhərində 4 terminalın inşasına start verib. Bu terminallar neft, taxıl, konteynerlərin emalı və ümumi təyinatlı terminallar olacaq. Bu isə "Şimal-Cənub"la daha çox yüklərin rahat şəkildə daşınmasına imkan verəcək.

Qazaxıstanın Aktau şəhərində Azərbaycanın İstehsal və Logistika Mərkəzinin fəaliyyət göstərməsi ixrac siyasətinin mühüm tərkib hissəsidir. Qeyd edək ki, bu, 25 faizi dövlətə məxsus olmaqla, Azərbaycanın xarici ölkələrdə ilk logistika mərkəzidir. Mərkəz Azərbaycanda istehsal olunan sənaye, kənd təsərrüfatı və ərzaq məhsullarının Qazaxıstan və digər Mərkəzi Asiya ölkələrinə, həmçinin Qazaxıstan mallarının ölkəmizə ixracı üçün əlverişli şərait yaradır. Eləcə də Rusiya istiqamətində Azərbaycan müvafiq addımlar atır. Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev bütün bunların vacib əhəmiyyət kəsb etdiyini vurğulayır. O, bu vəziyyətin Azərbaycanla Rusiya regionları arasında əlaqələrə də müsbət təsir göstərdiyini vurğulayır: "Təbii ki, respublikanın onunla qonşuluqda yerləşən regionlarla əlaqələri daha sıxdır. Taxıl məhsullarının ən iri təchizatçısı olan Stavropol diyarında bu yaxınlarda Azərbaycan nümayəndə heyəti üçün biznes-görüş təşkil edilib. Tərəflər Azərbaycana Rusiya məhsulları, o cümlədən elit toxum ixracı barədə razılığa gəliblər. Azərbaycanda aqrar sahənin nümayəndələri üçün bu toxumlar yüksək məhsula zəmanət olacaq, rusiyalılar isə öz süfrələri üçün Azərbaycandan daha çox meyvə və tərəvəz alacaqlar. O vaxtkı İqtisadiyyat naziri Şahin Mustafayevin sözlərinə görə, Azərbaycan Rusiyaya meyvə-tərəvəz məhsulları satışını ikiqat artıraraq, bir milyon tona çatdıra bilər. Həştərxanda logistika hab yaradılması da aqrar sektorla bağlıdır. Azərbaycanın "KDY Logistics" şirkəti bu habın tikintisinə 2 milyard rubl sərmayə qoyub. İndi həmin şirkət müvəqqəti saxlama anbarından Rusiyaya və digər MDB ölkələrinə ildə 2,5 milyon ton meyvə və tərəvəz nəql etməyi planlaşdırır.




2021-ci ildə Yekaterinburqda iri logistika mərkəzinin istifadəyə verilməsi planlaşdırılır. Nəticədə Sverdlovsk vilayəti ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin həcmi, demək olar ki, ikiqat artaraq 12 milyard rubla bərabər olacaq. Məsafə urallılar üçün maneə olmayıb: bu yaxınlarda həmin regionun nümayəndə heyəti Bakıda ən müxtəlif əməkdaşlıq istiqamətləri üzrə - şəhərsalmadan başlamış mədəniyyət və təhsil sahəsində mübadiləyə qədər 30-dan çox görüş keçirib". Dmitri Savelyev qeyd edir ki, Azərbaycanın Rusiyanın müxtəlif yerlərində yaratdığı hablar, logistika mərkəzləri iqtisadi əlaqələri daha da dərinləşdirəcək.

Bu xüsusda daha bir məqam "Cənub-Qərb" dəhlizi ilə bağlıdır. Ümumiyyətlə, "Cənub-Qərb" layihəsi üzrə Azərbaycan, İran, Gürcüstan, Ukrayna və Polşanın birgə işinin məqsədi yeni cəlbedici logistika məhsulunun yaradılmasıdır. Artıq bu xüsusda müvafiq addımlar atılır və proses-də ən yaxından iştirak edən ölkələrdən biri də Azərbaycandır. Onu da bildirək ki, hazırda logistika və ticarət sürətlə qloballaşan dünyada iqtisadi inkişafın əsas təkanverici qüvvələrindən biri hesab olunur. Bu mənada, logistika imkanlarının genişləndirilməsi iqtisadi inkişafa xidmət etməklə yanaşı, ölkəmizin regional və beynəlxalq ticarətdə rolunun artmasına da gətirib çıxarır. Logistika imkanlarının genişləndirilməsi hazırda ölkənin iqtisadi imkanlarının artırılması baxımından qarşıya qoyulan mühüm vəzifələrdən biri sayılır. Azərbaycanın ixrac potensialının və yerli məhsulların xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi də bu amillə sıx bağlıdır. Azərbaycanın xarici ticarətinin strukturunda isə kənd təsərrüfatı məhsulları üstünlük təşkil edir və bu sahədə logistika mərkəzlərinin yaradılması, xüsusən də Rusiya istiqamətində bunların edilməsi artıq öz müsbət nəticələrini verir. Belə mərkəzlər və nəqliyyat dəhlizləri imkan verir ki, yerli sahibkarlar öz məhsullarını dünya bazarına daha asan və az xərclə çıxarsınlar. "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"ndə vurğulanır ki, logistika sahəsində əməliyyatların təkmilləşdirilməsi mühüm önəm daşıyır. Bu fonda ölkənin özündə də belə mərkəzlərin yaradılması xüsusi diqqət mərkəzində yer alır. Qaradağ rayonunun Lökbatan qəsəbəsində inşa olunan Abşeron Logistika Mərkəzinin fəaliyyətə başlaması da bunun parlaq ifadəsidir. Xatırladaq ki, tarixi İpək yolunun üzərində yerləşən bu mərkəzin sutkalıq yükaşırma gücü 30 min ton təşkil edir, bu da ildə təqribən 11 milyon ton yükə bərabərdir. Bu mərkəz vasitəsilə Azərbaycanın kənd təsərrüfatı məhsullarının xarici ölkələrə ixracı reallaşır.

**Bütün bunlar aydın göstərir ki, Azərbaycanın nəhəng nəqliyyat layihələrinin reallaşdırılması üçün fəaliyyəti genişmiqyaslı xarakterə malikdir. Bu həm də ölkəmizdə istehsal olunan qeyri-neft məhsullarının beynəlxalq nəqliyyat marşrutları ilə dünya bazarlarına çıxarılmasında da mühüm rol oynayır.**

***Tahir TAĞIYEV***

# Son illər xaricdə müdafiə edilmiş elmi işlərlə bağlı rəsmi araşdırma aparılacaq...

**Azərbaycanda bir sıra insanlar yalnız ölkəmizin elmi qurumlarından deyil, həm də xarici ölkələrdə elmi adlar alıblar. Xarici ölkələrdən elmi adlar alan şəxslərin elmi adları və dərəcələri ilə bağlı indiyə qədər hər hansı araşdırma, attestasiya həyata keçirilmirdi. Onu da vurğulayaq ki, bəzilərinin bu elmi adları müxtəlif üsullarla aldığı qeyd edilir.**

Məlum olduğu kimi, Baş nazir Əli Əsədovun imzaladığı qərara əsasən, "Xarici ölkələrdə verilmiş elmi dərəcələr və elmi adlar haqqında sənədlərin nostrifikasiyası (ekvivalentliyinin müəyyən edilməsi və tanınması) və ya təkrar attestasiya əsasında tanınması barədə şəhadətnamələrin forması" təsdiqlənib. Qeyd olunub ki, sözügedən şəhadətnamələr Prezident yanında Ali Attestasiya Komissiyası tərəfindən verilir.

Tanınmış təhsil eksperti, tarix üzrə fəlsəfə doktoru Kamran Əsədov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan bu gün elm və təhsil sahəsində SSRİ-dən qalan ənənələri davam etdirən yeganə ölkədir: "İlk növbədə qeyd edim ki, SSRİ dağıldı, onunla birgə köhnə sistemin qalıqları da zamanla sıradan çıxmaqdadır. Azərbaycan isə SSRİ-nin yeganə varisi olaraq qalır. Bəli, Azərbaycan bu gün elm və təhsil sahəsində SSRİ-dən qalan ənənələri davam etdirən yeganə ölkədir. Gürcüstanda müstəqillikdən sonra uzun müddət "elmlər namizədi", "elmlər doktoru" elmi dərəcələri və "dosent", "professor" elmi adlar və elmi dərəcələrinin verilməsi mərkəzləşdirilmiş qaydada Ali Attestasiya Komissiyası tərəfindən həyata keçirilib. Lakin 2004-cü ildən sonra Gürcüstan bu modeldən tamamilə imtina edərək, Anqlo-sakson modelinə, daha dəqiq desək, ABŞ modelinə keçib. Gürcüstanda bu istiqamətdə aparılan islahatlar, ilk növbədə, elmi dərəcə və elmi adlarla bağlı olub. Belə ki, "elmlər namizədi" və "elmlər doktoru" elmi dərəcələri ləğv edilib və ölkədə vahid elmi dərəcə - "doktor" (PhD) müəyyən edilib. Əvvəlki dövrdə "elmlər namizədi" və "elmlər doktoru" elmi dərəcələri alanların da elmi dərəcələri "doktor" ilə əvəz edilib. Əvvəlki elmi adlar da tamamilə ABŞ sisteminə uyğunlaşdırılıb və yeni sistemdə "assisent", "assisent professor", "assosiativ professor" və "professor" elmi adları (vəzifələri) müəyyən edilib. Bunlarla yanaşı, fəxri elmi adlar olan "fəxri doktor" və "emeritus"un da verilməsi nəzərdə tutulub.

Aparılan islahatların ikinci mühüm istiqaməti isə Ali Attestasiya Komissiyasının ləğv edilməsi, onun elmi dərəcə və elmi adların verilməsi ilə bağlı bütün səlahiyyətlərinin ali təhsil müəssisələri və elmi təşkilatlara ötürülməsi olub. Belə ki, hazırda Gürcüstanda elmi dərəcə və elmi adların verilməsinin əsas şərtləri "Ali təhsil haqqında" (2004) Qanunda təsbit edilib, ali təhsil müəssisələri və elmi təşkilatlar isə bu şərtlərə özlərinin də əlavə şərt müəyyən etmək hüququ ilə elmi dərəcə və adları verirlər".

O qeyd etdi ki, ölkədə ali təhsil müəssisələri yalnız bakalavr təhsili verən "kollec", bakalavr və magistr təhsili verən "tədris universiteti" və bakalavr, magistr və doktorantura təhsili verən "universitet" olmaqla üç yerə bölünüb. Ölkədə yeganə elmi dərəcə olan "doktor" dərəcəsini əldə etmək üçün universitetlərdə doktorantura təhsilini tamamlamaq və dissertasiya yazaraq müdafiə etmək tələb olunur. Universitetlərin elmi şuraları dissertasiya müdafiə şuralarını yaradır və bu şuraların əsasnamələrini təsdiq edir. "Hazırda Avropada və inkişaf etmiş ölkələrdə iki doktorluq sistemi yoxdur. Yalnız fəlsəfə doktoru var, bunu PhD kimi qeyd edirlər. "Fəlsəfə doktoru" elmi dərəcəsinin sahibi yalnız filosof deyil, həm də müxtəlif elm sahələrinin nümayəndələri - riyaziyyatçı fizik, bioloq, kimyaçı, hüquqşünas, ədəbiyyatçı, dilçi və s. ola bilər. Avropada dosent və professor adına iddia edənlər, təbii ki, imtahan verməlidirlər. İmtahan isə Təhsil Nazirliyi ilə birgə keçirilir.

Tədqiqat işinə gəldikdə isə, araşdırılan problemin nəticəsi elmi kəşf kimi qəbul olunarsa, o halda buna görə həmin şəxs patent və qonorar alır. Bu isə artıq təhsil pilləsi sayılmır.

Qısası, elm sahəsində zamandan çox geridə qalmışıq, sürətlə dəyişən dünyaya uyğunlaşa bilmirik. Çünki dəyişən dünyanın reallıqlarını tam başa düşməyənlər Azərbaycanda elmi adların verilməsində SSRİ-nin "qızıl qayda"larını yaşatmaqda davam edirlər. Ancaq bu sahədə vəziyyət belə qala bilməz, qalmamalıdır. Çox arzuolunandır ki, ölkə rəhbərliyi səviyyəsində bu məsələyə müdaxilə edilsin və "elmlər doktoru" kimi lazımsız bir əlavə aradan qaldırılsın, elmin gəncləşməsinə dəstək verilsin.

Azərbaycanda elmi dərəcə almaq hər bir ali təhsilli üçün əlçatan olub. Burada yalnız istək rol oynayır. Ölkədə elmi dərəcə alanlar isə elmə heç bir yenilik gətirmirlər" - deyə K.Əsədov qeyd etdi.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucovun sözlərinə görə, bu olduqca əhəmiyyətli bir məsələdir: "Bildiyimiz kimi, Azərbaycan Respublikasının Baş naziri artıq xarici ölkələrdə verilmiş elmi dərəcələr və elmi adlar haqqında sənədlərin nostrifikasiyası (ekvivalentliyinin müəyyən edilməsi və tanınması) və ya təkrar attestasiya əsasında tanınması barədə şəhadətnamələrin formasını təsdiqləyib. Buna təkrar attestasiya əsasında tanınması da deyirlər. Xarici ölkələrdən verilən elmi dərəcələrin və elmi adların Azərbaycanda tanınması ilə bağlı müvafiq dövlət tərəfindən tanınan, təsdiq olunan sənədin verilməsi çox vacib bir məsələdir. Bu, uzun illərdir xarici ölkələrdə elmi ad və elmi dərəcə almış alimləri düşündürən məsələ idi. Bununla bağlı müvafiq qanunda bir boşluq vardı, bununla bağlı müvafiq qaydalar yox idi. Artıq bu sahədə qaydalar təsdiqlənib. Hesab edirəm ki, yeni qərar xarici ölkələrdə elmi iş müdafiə edərək elmi ad alan alimlərimizin indiyə qədər keçirdiyi narahatlığa son qoyacaq.

Azərbaycanın bu sahə ilə bağlı milli sənədi olmalıdır. Azərbaycan vətəndaşları gedib xaricdə təhsil alır, sonra elmi iş müdafiə edir, elmi dərəcə alır, ölkəyə döndükdən sonra öz elmi dərəcəsinin rəsmən müvafiq qurum tərəfindən imzalanmasına ehtiyac yaranır. Baş nazirin imzaladığı qərar bu istiqamətdə çox lazımlı qərardır. Burada söhbət ondan getmir ki, bu adamlar gəlib ölkədə təkrar attestasiyadan keçərkən sənədlərinin təsdiqi ilə bağlı problem yaşaya bilərlər. Əksinə, bu qərarın verilməsi bu sahədə indiyə qədər mövcud olan problemi aradan qaldıracaq. Bu qərar, həmçinin, bu istiqamətdə olan neqativ halların aradan qaldırılmasına şərait yaradacaq. Bu qərar, eyni zamanda, xaricdən əldə edilən saxta sənədlərin, müxtəlif yollarla əldə edilən saxta diplomların Azərbaycanın elm məkanına daxil olmasının qarşısının alınmasına səbəb olacaq. Əlbəttə, bilirik ki, Avropada, ABŞ-da, Yaponiyada elmi iş müdafiə edib, elmi ad alan alimlərlə bağlı heç bir problem yoxdur. Burada əsas məsələ bundan ibarətdir ki, bəzi dövlətlərdə, xüsusən də keçmiş sovet respublikalarında bu kimi hallar mövcuddur. Rusiyada, Ukraynada bu cür saxta sənədlər vaxtilə verilib və onları pulla almaq mümkün idi. Bu sənədlərin saxta olduğunu müəyyənləşdirmək çox çətin idi. Bu qərarın verilməsinin yalnız müsbət tərəfi var. Hansı alim ki, zəhmət çəkib həqiqətən də bu elmi adı alıb, onunla bağlı heç bir problem olmayacaq, saxta yolla alim adı alanların elmi dərəcələri ləğv olunacaq, elmi işləri də həmçinin" - deyə İ.Orucov vurğuladı.



***Kamran Əsədov:** "Dəyişən dünyanın reallıqlarını tam başa düşməyənlər Azərbaycanda elmi adların verilməsində SSRİ-nin "qızıl qayda"larını yaşatmaqda davam edirlər"*

***İlqar Orucov:** "...saxta yolla alim adı alanların elmi dərəcələri ləğv olunacaq"*

***İradə SARIYEVA***

# Özəl məhkəmə ekspertizalarının yolu açıldı...

**Xəbər verildiyi kimi, Azərbaycanda özəl məhkəmə ekspertləri fəaliyyət göstərəcəklər. Bunula bağlı "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanuna dəyişiklik təklif edilir.**

*"...ayrıca qanunvericilik aktı qəbul olunmalıdır"*

Qeyd edək ki, təklifdə qanunun 11-ci maddəsi (Məhkəmə eksperti) yeni redaksiyada verilir: Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxs özəl məhkəmə eksperti şəhadətnaməsini almaq üçün müvafiq dövlət rüsumunun ödənildiyini təsdiq edən sənədlə yanaşı, aşağıdakı tələblərdən birinə cavab verdiyini təsdiq edən sənədləri təqdim etməlidir: ekspert qismində fəaliyyət göstərmək istədiyi ixtisas üzrə ən azı 10 il işlədiyini; ekspert qismində fəaliyyət göstərmək istədiyi ixtisas üzrə fəlsəfə doktoru və ya elmi dərəcəsinin olduğunu; xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərinin (diplom, sertifikat və sair) mövcudluğunu.

Müvafiq icra hakimiyyəti orqanı özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxslərlə müsahibə keçirməlidir.

Özəl məhkəmə ekspertlərinə şəhadətnamələr müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

Azərbaycanda özəl məhkəmə ekspertlərinin fəaliyyət göstərməsinin əhəmiyyəti haqqında danışan hüquq müdafiəçisi Sahib Məmmədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, alternativ və özəl məhkəmə ekspertizası bu ilin aprel ayında Prezident İlham Əliyevin imzaladığı "Məhkəmə-hüquq islahatlarının əsas istiqamətlərinin sahibkarlarla ictimai müzakirəsi" Fərmanında da öz əksini tapıb: "Məlumat üçün bildirim ki, elə sahələr var ki, ekspertizanın bütün növləri özəldə cəmləşə bilməz. Həmçinin, özəl ekspertiza bahalı avadanlıqlar və məsuliyyət tələb edir.

***Sahib Məmmədov:** "Özəl məhkəmə ekspertizasının yaradılmasına ehtiyac var"*



Bütün hallarda, Azərbaycanda özəl məhkəmə ekspertlərinin fəaliyyət göstərməsinin tərəfdarıyam. Onu da deyim ki, özəl məhkəmə ekspertizası ilə bağlı ayrıca qanunvericilik aktı qəbul olunmalıdır. Eyni zamanda, hansı ekspertiza növlərinin alternativ məhkəmə tibb ekspertizasına verilməsi müəyyən olunmalıdır. Bununla bağlı qanunvericiliyə bəzi dəyişikliklər əlavə olunmalıdır".

Həmsöhbətimizin sözlərinə görə, özəl məhkəmə ekspertizasının yaradılmasına ehtiyac var. Qanun və normativ-hüquqi akt varsa, bu icra olunmalıdır. Məlumdur ki, məhkəmə ekspertizası mərkəzinin şəraitinin yaxşılaşdırılması üçün əlavə tədbirlər həyata keçirilir. Bununla yanaşı, özəl məhkəmə ekspertizasının təşkilinə də şərait yaradılmalıdır.

*Günel CƏLİLOVA*

# Azərbaycan Ali Məhkəməsinə yeni səlahiyyət verilir - məhkəmələrdə monitorinq...

**Məlum olduğu kimi, məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə dair Azərbaycan Prezidentinin fərmanının icrası çərçivəsində hazırlanmış ikinci qanunvericilik paketi Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılıb.**

*"...monitorinqin aparılmasının məhkəmə qərarlarının dəyişdirilməsinə səbəb olub-olmayacağı araşdırılmalıdır"*

Müzakirəyə çıxarılan layihələr vahid məhkəmə təcrübəsinin formalaşdırılması və məhkəmə ekspertizasının keçirilməsi ilə əlaqədar fəaliyyətin təkmilləşdirilməsi kimi iki əsas istiqaməti əhatə edir. Qanun layihələrinə əsasən, məhkəmələrin fəaliyyətində aşkar edilən nöqsanların aradan qaldırılması üçün Ali Məhkəmə tərəfindən monitorinqlərin təşkil edilməsi nəzərdə tutulur. Monitorinqin nəticələri hakimlərin fəaliyyətinin Məhkəmə-Hüquq Şurası tərəfindən qiymətləndirilməsi zamanı nəzərə alınacaq.

Məhkəmələrin fəaliyyətində aşkar edilən nöqsanların aradan qaldırılması üçün Ali Məhkəmə tərəfindən monitorinqin təşkil edilməsi barədə fikir bildirən Konstitusiya Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu ilin aprel ayında məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə dair Prezident tərəfindən Fərman imzalanıb. Həmin Fərman məhkəmə hakimiyyəti sistemində yeni imkanlar açıb. Məlumdur ki, artıq bir çox qanunvericilik aktında dəyişiklik baş verib: "Məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə dair iki istiqamətdə qanun paketi Milli Məclisə daxil olub. Paketlərdən biri Ali Məhkəməyə yeni səlahiyyətlərin verilməsi ilə bağlıdır".

Həmsöhbətimiz hesab edir ki, Ali Məhkəməyə monitorinq səlahiyyətinin verilməsi bu

***Əliməmməd Nuriyev:** "Ali Məhkəməyə monitorinq səlahiyyətinin verilməsi bu sahədə müəyyən dəyişikliklərə səbəb olacaq"*




sahədə müəyyən dəyişikliklərə səbəb olacaq. Monitorinqin hansı formada aparılmasına gəlincə, Ə.Nuriyev bildirdi ki, bu mövzu ilə bağlı izahata ehtiyac var.

**Bu, yuxarı məhkəmənin nəzarət funksiyasını özündə ehtiva etmək imkanı verən alətdən biri kimi ola bilər. Ancaq monitorinq funksiyasının hansı formada aparılması dəqiq müəyyənləşdirilməlidir. Eyni zamanda, monitorinqin aparılmasının məhkəmə qərarlarının dəyişdirilməsinə səbəb olub-olmayacağı araşdırılmalıdır.**

*Günel CƏLİLOVA*

**Sahibkarlığın inkişafı Azərbaycan dövlətinin qarşısında duran əsas məqsədlərdən biridir. Bu sahənin inkişafı özəl sektorun tərəqqisi üçün böyük əhəmiyyətə malikdir. Belə ki, bu, ölkə iqtisadiyyatının daha dinamik inkişafına şərait yaratmış olur. Burada inkişafın əsas göstəricisi isə bazara yeni-yeni sahibkarlıq subyektlərinin daxil olması ilə bağlıdır.**

# Azərbaycanda sahibkarlara qanunsuz təzyiq göstərənlərin həbs dövrü başlaya bilər

## *Ruslan Atakişiyev: "Sahibkarlığın fəaliyyətinə mane olanlar hətta həbs oluna bilər"*



Sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması məqsədilə ölkəmizdə islahatlar aparılır, uzunmüddətli layihələr həyata keçirilir. Lakin bu sahənin davamlı inkişafına mane olan müəyyən problemlər də mövcuddur. Qeyd edək ki, sahibkarlar hər zaman bəzi məmurların onların fəaliyyətinə mane olduqlarını bildirirlər. Artıq sahibkarlıq fəaliyyətinə mane olanlar sərt şəkildə cəzalandırılacaq. Onların bu probleminin birdəfəlik həll olunması üçün yaxın günlərdə xüsusilə bölgələrdə bu istiqamətdə prosesə start veriləcək. Cəzalandırma yalnız işdən çıxarılmaqla məhdudlaşmayacaq. Bəzi məmurlar hətta həbs oluna bilər.

Xatırladaq ki, ölkə başçısı İlham Əliyev İqtisadiyyat naziri Mikayıl Cabbarovu qəbul edərkən bu məsələnin üzərində xüsusi dayanmışdı. Prezident qeyd etmişdi ki, inkişaf etmiş ölkələrdə ümumdaxili məhsulda əsas rolu kiçik və orta sahibkarlar oynayırlar: "Bizdə isə hələ ki, belə deyil. Biz də çalışmalıyıq elə bir şərait yaradaq ki, hər bir istedadlı insan, biznesə meyli, həvəsi olan hər bir şəxs bizneslə məşğul ola bilsin, məmur təzyiqindən, müdaxiləsindən azad olsun. Sahibkarlara yönəlmiş o çirkin əllər kəsilməlidir. Bəzi hallarda dövlət məmurları, yerli icra orqanlarının rəhbərləri, nümayəndələri imkan vermirlər, xüsusilə bölgələrdə. Əgər indi kimsə özü üçün bir balaca iş qurursa, gəlib zəli kimi onun bədənindən yapışırlar, qanını sorurlar. Belə adamlara qarşı çox ciddi tədbirlər görüləcəkdir".

Göründüyü kimi, ölkə başçısı sahibkarlıq fəaliyyətinə müdaxilə edən, maneə törədən məmurların cəzalandırılacağını açıq mətnlə bəyan edib.

Sahibkarlıq fəaliyyətinə mane olanların sərt şəkildə cəzalandırılması, hətta onların həbs olunması ölkədə biznes mühitinin inkişaf etməsinə səbəb olacaq.

İqtisadçı-ekspert Ruslan Atakişiyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, qeyri-neft sektorunda yüksək nəticələrin əldə edilməsi ölkədə sahibkarlığın inkişafı üçün münbit şəraitin yaradılmasından çox asılıdır. Son illər ərzində dövlət tərəfindən belə bir mühitin formalaşdırılması üçün kifayət qədər ciddi addımlar atılıb: "Danılmaz faktdır ki, bu gün əsasən kiçik və orta sahibkarların fəaliyyətlərinə müdaxilələr çoxdur. Bunlar isə çox vaxt sahibkarlardan pul almaq məqsədi güdən yersiz müdaxilələr olur. Bu, müxtəlif dövlət qurumlarının sahibkarlıq fəaliyyətini yoxlamasıdır. Bu yoxlamalar adətən sahibkarlar üçün əlavə pul vermək, bəzilərinin işində fasilələrin yaranması deməkdir. Sahibkarlıq fəaliyyətinə olan müdaxilələr kiçik sahibkarların öz biznesini genişləndirməsində problemlər yaradır. Araşdırmalar zamanı müəyyən edilib ki, müxtəlif dövlət qurumlarının sahibkarlıq fəaliyyətinə yersiz müdaxilələri var. Bəzi hallarda birbirini təkrarlayan dövlət qurumları sahibkarlıq fəaliyyətinə müdaxilə edirlər".

*"...kiçik sahibkarların öz biznesini genişləndirməsində problemlər yaradır"*

Həmsöhbətimizin sözlərinə görə, sahibkarlıq fəaliyyətinə mane olanlar qanun çərçivəsində sərt şəkildə cəzalandırılmalıdır: "Qanunverciliyə uyğun olaraq, sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar öz işlərini qurmalıdırlar. Onlar öz işlərini quran zaman müvafiq dövlət qurumları da sahibkarlıqla məşğul olmaq istəyənlərə və ya olanlara münasibətini də qanunvericiliyin tələbinə uyğun şəkildə aparmalıdır. Hər hansı bir qurumun nümayəndəsi tutduğu vəzifədən sui-istifadə edərsə, o şəxs qanun çərçivəsində yol verdiyi nöqsanın ağırlıq səviyyəsinə uyğun olaraq cəzalandırıla bilər. Sahibkarlığın fəaliyyətinə mane olanlar hətta həbs oluna bilər".

İqtisadçı-ekspert onu da əlavə etdi ki, inkişaf etmiş ölkələrdə bizneslə məşğul olmaq istəyənlərə hansısa məmur mane olursa, o şəxs qanunvericiliyin tələbinə uyğun şəkildə cəzalandırılır. Analoji qayda bizdə də tətbiq olunacaq.

***Günel CƏLİLOVA***

**2019-cu il tədricən başa çatmaq üzrədir. Azərbaycanın sığorta bazarı ilə bağlı 9 ayı əhatə edən məlumatlara nəzər salsaq, artımların və azalmaların müşahidə olunduğu sahələri görmək olar. 2019-cu ilin yanvar-sentyabr aylarında ölkədə fəaliyyət göstərən sığorta şirkətləri tərəfindən 522.5 milyon manat məbləğində sığorta haqqı toplanıb, 201.7 milyon manat məbləğində sığorta ödənişi həyata keçirilib.**

# Sığorta şirkətləri ziyanla işlədiklərini gizlətmək üçün rüblük hesabatdan qaçır...

## *Fuad İbrahimov: "Məlumatların gizlədilməsi sonda vətəndaşların bu sektora inamsızlığına gətirib çıxarır"*




Könüllü sığorta bazarı üzrə haqlar 351.7 milyon manat, ödənişlər isə 143.4 milyon manat təşkil edib. İcbari sığorta bazarı üzrə haqlar 170.7 milyon manat, ödənişlər isə 58.3 milyon manat olub.

Cari ilin analoji dövründə sektor üzrə məcmu sığorta haqlarının 67.3 faizi könüllü, 32.7 faizi isə icbari sığorta növlərinin payına düşüb. Sığorta ödənişlərinin 71.1 faizi könüllü, 28.9 faizi icbari sığorta növləri hesabına formalaşıb.

Müqayisə üçün bildirək ki, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə toplanan sığorta haqlarının həcmi 8,1 faiz azalıb, sığorta ödənişlərinin həcmi isə 7,9 faiz artıb. Maliyyə Bazarlarına Nəzarət Palatası sentyabr ayında sığorta şirkətlərinin nə qədər sığorta haqqı topladığını da elan edib. Məlumata görə, sentyabrda 11 sığorta şirkətinin yığımları 1 milyon manatdan çox olub. 5 sığorta şirkətinin yığımları 2-3 milyon manat arasında dəyişib. 11 sığorta şirkətinin yığımları isə 1 milyon manatdan aşağı olub.

Ümumilikdə, 2019-cu ildə sığorta bazarının kiçildiyi müşahidə edilib. Kiçilmənin yığımların azalması səbəbindən olduğu deyilir. Diqqətçəkən məqamlardan biri də ondan ibarətdir ki, sığorta şirkətləri mənfəətlərinin azalmasını, zərərlə işləməsini fərqli yollarla gizlətməyə çalışırlar. Bunu daha çox hesabatların vaxtında açıqlanmaması ilə ört-basdır edirlər.

Maraqlıdır, ekspertlər sığorta şirkətlərinin hesabatları yubatmasını nə ilə əlaqələndirirlər?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, hesabatların yubadılması bir sıra amillərlə bağlıdır: "Rüblük maliyyə hesabatlarını açıqlamayan, zərərlə işlədiklərini ört-basdır edən şirkətlər bazarda varlıqlarını qorumaq, ya da ümumi dövriyyələrini gizlətmək məqsədilə bunu edirlər. Fikirləşirlər ki, bunu açıqlasalar, bazarda bu şirkətlərə inam azalacaq. Ancaq hesabatın verilməsinin yubadılması da onların xeyrinə işləmir. Hesabatların verilməsinin yubadılması sığorta bazarına olan inamsızlığı daha da artırır. Məlumatların gizlədilməsi sonda vətəndaşların bu sektora inamsızlığına gətirib çıxarır. Nəticədə sığorta bazarının hazırkı vəziyyəti qənaətbəxş hesab edilmir. Baxmayaraq ki, sığorta ilə bağlı qanunvericilik mükəmməldir və dövlət tərəfindən bu sahəyə nəzarət var, amma yenə də bu sahə əhalinin etimadını qazana bilmir. Sığorta şirkətləri arasında boşluqlar çoxdur. Hansı ki, işinin öhdəsindən gələ bilməyən bir sıra belə şirkətlər var.

*"Bu gün hansısa sığorta hadisəsi baş verirsə..."*

**Düzdür, bunu bütün sığorta şirkətlərinə aid etmək olmaz. Elə şirkətlər var ki, özünü doğruldub. Ancaq bir sıra sığorta şirkətləri kütləvi surətdə vətəndaşların etibarını itirirlər. Görürsən ki, icbari sığorta yığımları ilə bağlı şirkətlər arasında əməlli-başlı yarış gedir. Ancaq ortada keyfiyyət yoxdur. Bu gün hansısa sığorta hadisəsi baş verirsə, vətəndaş min bir zülm çəkir. Ona görə də vətəndaşların sığorta şirkətlərinə inam və etimadı azalır".**

***Vidadi ORDAHALLI***

**Son dövrlər gənclər arasında geniş yayılan xəstəliklər sırasında ürək-damar xəstəlikləri ilk yerdə durur. Bu xəstəliklər ilbəil cavanlaşır. Bu gün Azərbaycanda gənclər arasında geniş yayılan ürək-damar xəstəliklərinin yaranma səbəbləri uzun illərdir tədqiqat mövzusu olaraq araşdırılır.**

# Gənclərimiz arasında ürək-damar xəstəliklərinin şok artım səbəbi - qəlyan və enerji içkiləri...

***Rafis Bağırov:** "Qəlyanın çəkilməsi ağciyərlərin, ürək-damar sisteminin xəstəliklərinə və həmçinin, sağalmaz xərçəng xəstəliyinin yaranmasına səbəb ola bilir"*



*"Tərkibi bilinməyən enerji içkiləri də insan orqanizminə zərər vurur"*

Bir sıra alimlər ürək-damar xəstəliklərinin cavanlaşmasını əsasən sinir sistemində yaranan gərginliklərlə əlaqələndirsələr də, bu xəstəliklərin cavanlaşmasının səbəbinin başqa faktorlar olduğu üzə çıxıb. Aparılan tədqiqatlar zamanı məlum olub ki, Azərbaycanda hazırkı dövrdə energetik içkilərdən istifadə etmək, qəlyan çəkmək ürək-damar xəstəliklərinin cavanlaşmasının əsas səbəblərindən biridir.

Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Kardiologiya İnstitutunun direktoru, tibb elmlər doktoru Gülnaz Dadaşovanın sözlərinə görə, əvvəllər infarkta, hipertoniyaya yaşı 45-50-dən çox olan insanlar arasında rast gəlinirdi: "Adətən, yaş amili ilə əlaqədar 45 yaşdan sonra kişilərdə, 50 yaşdan sonra qadınlarda ürək-damar xəstəlikləri olur. Ancaq indi 28-30 yaşlarında cavan oğlanlar hipertoniyadan əziyyət çəkirlər. Hətta artıq 18 yaşlı oğlanlar da bizə təzyiqin yüksəlməsi şikayəti ilə müraciət edirlər. Təəssüf ki, gənclər tərəfindən energetik içkilərin qəbulu, qəlyanın çəkilməsi, onların qeyri-sağlam həyat tərzi keçirməsi ölkəmizdə ürək-damar xəstəliklərini cavanlaşdırır".

İnstitut direktoru əlavə edib ki, əvvəllər yalnız alkoqollu içkilərdən istifadə və siqaret çəkmə kimi zərərli vərdişlərin ürək-damar xəstəliklərinin yaranmasına mənfi təsir göstərdiyi qeyd edildiyi halda, indi bunun yaranmasına və inkişafına şərait yaradan amillərin sayı dəfələrlə artıb: "Neqativ informasiya verən televiziya verilişlərinin, qorxu filmlərinin də ürək-damar xəstəliklərinin inkişafına çox böyük təsiri var. Məsələn, xəstəxanadan evə gedən ərəfədə belə verilişlərə baxan infarkt olmuş xəstələrimiz arasında təkrar infarkt olanlar olub. Yaşlıların, uşaqların, ürəyi xəstə olan insanların belə verilişlərə baxması düzgün deyil. Bu barədə insanlara daha geniş məlumat verilməlidir ki, onlar risq amillərini bilsinlər".

G.Dadaşova əlavə edib ki, energetik içkilərin tərkibində kofeindən başqa, insanın sinir sisteminə olduqca mənfi təsir edən toksiki maddələr, konservantlar var: "Həmin maddələr insanlarda təzyiqi yüksəldir. Bu da, öz növbəsində, hipertoniyası olan insanların sayını artırır. Tələbələr arasında stress faktoru daha çox olduğuna görə hipertonik gənclərin sayı getdikcə artır. Biz xəstə olmaq istəmiriksə, təbiətə daha yaxın olmalı, təbii qidalar və içkilər qəbul etməliyik. Bununla yanaşı, insanlar ildə heç olmasa bir dəfə kardioloq müayinəsindən keçməlidirlər".

Tanınmış həkim Rafis Bağırov bizimlə söhbətində bildirdi ki, bəzi gənclərin həyat tərzi və vərdişləri onlara bir sıra xəstəliklər qazandırır. Ürək-damar xəstəliklərinin gənclər arasında daha geniş yayılmasının səbəblərini şərh edən həkim bildirdi ki, gənclər bir sıra pis vərdişləri tərgitməlidirlər. Onun sözlərinə görə, gənclər qəlyanın dadına aldanıb özlərini ölümün pəncəsinə atırlar. "Bu gün şəhərimizin hər yerində qəlyanxanalar var, hər mağazada isə enerji içkiləri satılır. Çox təəssüf ki, qəlyan salonları yeniyetmə və gənclərin həyatının bir parçasına çevrilib. Valideynlər qəlyan çəkən övladlarına qarşı hər hansı br tədbir görmür və qəlyana aludə olan gənc isə bir sıra xəstəliklər qazanır. Qəlyan siqaretdən də təhlükəlidir. Qəlyan hazırlanarkən müxtəlif meyvə ətirlərindən istifadə olunur və bu da gəncləri cəlb edir. Bir dəfə çəkilən qəlyan insanın bir aylıq immunitetini sıfıra endirir. Nəzərə alınsa ki, qəlyan bir dəfə çəkilmir və ay ərzində dəfələrlə bundan istifadə olunur, orqanizmə necə bir zərbə vurulduğunu təsəvvür etmək elə də çətin deyil. Qəlyanın tərkibində olan nikotin siqaretdən qat-qat çoxdur. Qəlyanın çəkilməsi ağciyərlərin, ürək-damar sisteminin xəstəliklərinə və həmçinin, sağalmaz xərçəng xəstəliyinin yaranmasına səbəb ola bilir. Düzgün hazırlanmayan yalançı meyvəli qəlyanlar gənclərin səhhətinə zərər vurur. Tərkibi bilinməyən enerji içkiləri də insan orqanizminə zərər vurur və ürək-damar, ağciyər xəstəliklərinin kəskin artmasına səbəb olur" - deyə mütəxəssis qeyd etdi.

Qeyd edək ki, başqa ekspertlər də sulu qəlyanın zərərlərinin çox olduğunu deyirlər. Onlar bildirirlər ki, qəlyanın üç növü var - tumbak, muesel, jurak. Tumbak adi tütündən təşkil olunur və tərkibində nikotinin miqdarı çoxdur. Nikotin su ilə isladılır, sıxılır, sonra qəlyana əlavə olunur. Bu növ tütün əsasən İranda məşhurdur. Ən çox yayılan tütün növü mueseldir. Tərkibində 70% bal, meyvə aromatlar və qliserin var. Elə bizdə də yayılan bu üsuldur. Lakin fərqli formada. Düzgün hazırlanmır və düzgün hazırlanmamış qəlyanlar ilə gəncləri qəlyana sürükləyirlər.

Mütəxəssislər vurğulayırlar ki, qəlyan çəkən zaman tütün yanan kömürlərin nəticəsində hərəkət edir, bu zaman yaranan tüstü əvvəlcə suya gedir, orada təmizlənir və sonda çəkən adamın ciyərlərinə daxil olur. Tüstü suda olan zaman 90% fenol və 50% digər zərərli maddələr suda qalır. Bundan başqa, ciyər qoruyucularına mənfi təsir göstərən asetaldehidlər də suda qalır və insan orqanizminə daxil olmurlar. Suda gedən filtrasiyaya görə qəlyanın tüstüsü insanın boğazını qıcıqlandırmır. İlk baxışdan hər şey əla görünür. Lakin heç də hər şey göründüyü kimi deyil. Qəlyan çəkən zaman sudan keçən tüstünü xaricə çıxarmaq üçün daha çox güc sərf etməlidir.

Bir saat qəlyan çəkən zaman insanın ciyərlərindən bir siqaret çəkən zamanla nisbətən təxminən 100-200 dəfə daha çox tüstü keçir. Ekspertlərin qeyd etdiyinə görə, nəzərə almaq lazımdır ki, su tüstünü zərərli maddələrdən tamamilə təmizləmir və həmin maddələr ciyərin daha dərin qatlarına gedir. İnsan orqanizminə düşən kömür hissələri yanaraq dəm qazı ifraz edir. Qəlyan çəkən zaman baş gicəllənməsi və ürək bulantısı da bununla bağlıdır.

***İradə SARIYEVA***

№ 200 (4098) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

9 NOYABR 2019-cu il

www.baki-xeber.com

# Kosmos haqqında genişmiqyaslı araşdırma başladı - 35 milyon qalaktika...

**Qaranlıq enerjinin sirrini açmağa çalışan elm adamları bir super-teleskop sayəsində kosmosa dair ən genişmiqyaslı müşahidəyə başlayıb.**



"Milli.Az" xəbər verir ki, 5 il davam edəcək müşahidədə 35 milyon qalaktika araşdırılacaq. Analizdə 5 000 mini teleskop iştirak edəcək. Bu teleskopların hər biri 20 dəqiqədən bir fərqli qalaktikaya baxacaq. Araşdırmaçılar ilk ilin sonunda ümumilikdə digər teleskopların analiz etdiyi qalaktikalardan daha çoxunu müşahidə etmiş olacaq. Qaranlıq enerji nədir? Büyük partlayış nəzəriyyəsi irəli sürüləndə kosmosun genişlənməsinin bir müddət sonra yavaşlayacağı və qravitasiyanın təsiri ilə yenidən kiçiləcəyi proqnozlaşdırılırdı. Lakin astronomlar 1998-ci ildə şokedici reallığı sübut etdi: kosmos təkcə genişlənmir, eyni zamanda, genişlənmə sürəti də hər il artır. Bu kəşfdən sonra elm adamları qravitasiyanın təsirini əksinə çevirən bir şey olduğunu düşünməyə başladı və buna qaranlıq enerji adını verdi. Bu gün kosmosun böyük qisminin qaranlıq enerjidən ibarət olduğuna inam var. Planetlərin, ulduzların və qalaktikanın quruluş daşı olan atomların kosmosun yalnız 5 faizini təşkil etdiyi iddia edilir. Müşahidə layihəsində yer alan London Kolleci Universitetinin professoru Ofer Lahav kəşf edilməsindən 20 il keçməsinə rəğmən, elm adamlarının hələ də qaranlıq enerji haqqında, demək olar ki, heç bir şey bilmədiyini söyləyir: Yalnız 5%-ni bildiyiniz kosmosda yaşamaq utancvericidir. Qaranlıq enerjinin təbiəti və nə olduğu fizika sahəsində inqilaba yol aça bilər!" Yeni layihədə nə araşdırılacaq? Beynəlxalq araşdırmaçılardan ibarət komanda Qaranlıq Enerji Spektroskopiya Alətləri (DESI) adlı cihazdan istifadə edəcək. ABŞ-ın Arizona ştatındakı Kitt dağının 2 km hündürlüyündə yerləşdirilən 4 metrlik Mayall teleskopunun üzərinə yerləşdirilən DESİ-də hər biri bir mini teleskop olan 5 000 optik lif var.

Çox sayda ölkədən 25 qurumun qatıldığı DESİ eyni anda 5 min fərqli qalaktikadan gələn işığı təhlil edərək onların dünyaya uzaqlığını ölçəcək və qalaktikaların işığı dünyaya gələrkən kosmosun necə genişlənəcəyini hesablayacaq. DESI kosmosun nə qədər dərininə getsə, o qədər keçmişi görəcək. Bunun səbəbi qalaktikaların işığının yaranmasının xeyli zaman aparmasıdır. Məsələn, DESI 10 milyard işıq ili uzaqlıqdakı bir qalaktikanı araşdıranda onun 10 milyard il əvvəlki halını görəcək.

## Yaxın 10 ildə bu peşələrə tələb artacaq

**Araşdırmaçılar yaxın 10 il üçün perspektivli peşə növlərini açıqlayıblar. "Qafqazinfo" həmin ixtisasları təqdim edir:**



Biofarmakoloq - canlı bioloji sistemdən dərman vasitələri hazırlayacaq. Bioinformatik - kompüter proqramlarının köməyi ilə biologiya və farmakologiya ilə əlaqəli məlumatları öyrənəcək. "Ağıllı" texnologiyaların layihəçisi - buna İT mütəxəssis də demək olar. Sadəcə, həmin mütəxəssislər indikilərdən fərqli olaraq, daha əhatəli imkanları olan proqramlar hazırlayacaq. Robot texnikası üzrə mütəxəssis - müxtəlif fəaliyyət istiqamətləri üzrə robot texnologiyalarını hazırlayacaq. Kibertəhlükəsizlik üzrə mütəxəssis - informasiya sistemini və rəqəmsal vasitələri kiberhücumlardan qorumaq üçün xüsusi infrastruktur hazırlayacaq. Alternativ enerji üzrə mütəxəssis - ənənəvi olmayan enerji mənbələrinin axtarışı və istifadəsi yollarını öyrənəcək. Neyropsixoloq - onun fəaliyyəti psixologiya və neyrologiya arasında incə xətti təşkil edəcək. O, insan beyninin psixi proseslərlə əlaqəsi strukturunu öyrənəcək. Proqram istehsalçısı - bu peşə aktivliyini daha da artıracq. Müxtəlif profilli mühəndis-layihəçi - artıq bu peşə sahiblərinə indi də rast gəlmək mümkündür. 3D-nəşr üzrə mühəndis - riyazi və yaradıcı imkanların birləşdiyi bu peşə sahibləri memarlıq, inşaat, tibb, hətta paltar və ayaqqabı istehsalı sahəsində aktivləşəcəklər. Virtual reallıq üzrə memar və inşaatçı - virtual aləmin - fəlsəfə, təbiət və cəmiyyət qanunları, iqtisadiyyat, landşaft, memarlıq - konseptual həllini müəyyən edəcək.

## Qara pişik futbol matçına mane oldu

**Qara pişik Nyu-Yorkda futbol matçına maneə törədib və stadion sahiblərinə uğursuzluq gətirib.**

"Oxu.az" xəbər verir ki, o, gözlənilmədən stadiona girib və hətta qapıya qədər getməyi bacarıb. Təbii ki, bütün stadion onu alqışlarla müşayiət edib. Qeyd edək ki, pişik meydanı tərk etdikdən sonra ev sahibi komanda hesabı açsa da, ümumilikdə uduzub.

## Elan

Şəki şəhər sakini Məmmədov Yadigar Müzəffər oğlunun adına verilmiz 7833 / 2538 saylı ev qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Baş Küngüt kənd sakini İslamova Hafizət Şirin qızının və ailə üzvlərinin adına verilmiş JN: 0325 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Abbasov Abbas Kazım oğluna məxsus, AR Vəkillər Kollegiyası tərəfindən 19.07.2018-ci ildə verilmiş 1316/VK saylı vəkil vəsiqəsi itirildiyi üçün etibarsız sayılır.

İsayeva Elnarə Rəfael qızının adına, Bakı şəhəri, Nərimanov rayonu, S.Rəhman küçəsi, ev 69 ünvanının çıxarışı və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Bakı Mühəndislik Universiteti tərəfindən Zülfüqar Məmməd oğlu Əhmədovun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Abdullayeva Zəminə Eldar qızına məxus sənədlər itdiyi üçün etibarsız sayılır (ünvan: Abşeron rayonu, Fatmayı kəndi, şəxsiyyət vəsiqəsi AA 0969907).





**Qoç** - Gün ərzində fəal çalışıb, sonra dincələ bilərsiniz. Amma əyləncə hisslərinə və istəklərinə qapılmayın. İnsanların çox olduğu yerlərdə vaxt keçirmək fikrinə düşməyin. Şəxsi həyatda təmkinli, ağıllı və müdrik davranın.



**Buğa** - Bitərəf gün olacaq. Təsərrüfat işlərini və ümumiyyətlə, bütün mühüm işləri günün ilk yarısında görməyə çalışın. Hadisələr öz axarı ilə, təxminlənən məcrada inkişaf edəcək.



**Əkizlər** - Bu gün işlər çox olsa da, bir qədər rahatlaşacaq, özünüzü asudə hiss edəcəksiniz. Gün keçdikcə, işlərinizi idarə edəcək və anlayacaq ki, insan şərtlərdən yox, şərtlər insandan asılıdır.



**Xərçəng** - Səhər saatlarında bütün diqqətinizi çoxdan bəri planlaşdırdığınız işə yönəldin. Problemlərdən qaçmayın, çünki onlardan uzaqlaşmaq problemləri həll etmək deyil. Axşam saatlarında zamanı boşuna keçirməyə çalışmayın.



**Şir** - Bu gün görəcəyiniz ən yaxşı iş özünüz olmaqdır. Yaxın ətrafınızı davranışınız, zəhmətkeşliyiniz, əməksevərliyiniz və səmimiyyətinizlə sevindirin. Həttə, bədxahlarınız belə, sizin qarşınızda duruş gətirə bilməyəcəklər.



**Qız** - Adi işlərlə məşğul olmaq, gündəlik və rutin qayğıları çözmək üçün əlverişli gündür. Başgicəlləndirici uğurlar gözləməyin. Bununla belə, əvvəl başladığınız və bu gün başa vurduğunuz işə görə ədalətli mükafat ala bilərsiniz.



**Tərəzi** - Bu gün ən kiçik detalları nəzərə alın, hadisələrin bütün inkişaf məcralarını nəzərdən keçirin. Planlarınızı uzunmüddətli və perspektivli edin. Sizə yardım və dəstək üçün müraciət edəcəklər.



**Əqrəb** - Sevdiyiniz insana olan hissslərinizi bu gün təzahür etdirməyin, təvazökar olun. Yaxşı tanımadığınız insanlarla münasibətlərdə sərvaxt olun. Dəyər verdiyiniz insan barədə acı həqiqəti ona dərhal söyləməyin.



**Oxatan** - İş axtaranlar elanlara və dostların məsləhətlərinə inanmasınlar. İşi özünüz tapın. İş yeri və imkanı olanlar isə səhər saatlarını qənimət bilərək günortaya qədər maksimum məhsuldarlıqla çalışsalar, pis olmaz.



**Oğlaq** - Səhər saatları işgüzar verilişlər, avtoservisə baş çəkmək, gəzinti və iş səfəri, tərəfdaşlarla və ya şəriklərinizlə danışıqlar üçün əlverişlidir. Axşam saatları evdəki şəraitin nə yerdə olduğunu aşkar göstərəcək.



**Dolça** - Səhər saatlarında işlərin çoxluğu sizi bir qədər narahat edə bilər. Rutin işlərlə özünüzü yükləməyin, əks təqdirdə, səhhətinizdəki problem ağırlaşa bilər. Günün ikinci yarısında iş tempini bir qədər aşağı salın.



**Balıqlar** - Bu günə yeni qərar, yeni plan və ya yeni layihə ilə başlamayın. Belə olarsa, yeniliyə marağınız tezliklə azalacaq və ya ümumiyyətlə, heç nə alınmayacaq. Günün ikinci yarısı daha məhsuldar olacaq.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Astronavtlar üçün köməçi robotlar...

**"OffWorld" şirkəti tərəfindən işlənib hazırlanmış "ağıllı" robotlar astronavtlara kömək edəcəklər.**



Məlumat verilir ki, bu robotlar istənilən şəraitdə fəaliyyət göstərə, həmçinin bir sıra elmi məsələləri yerinə yetirə bilirlər, məişət işlərində faydalı ola bilərlər. "Ictnews.az" bildirir ki, hazırda şirkət artıq yerüstü robotların işlənib hazırlanması üçün müxtəlif sifarişlər alıb. Belə robotlar, məsələn, insan üçün təhlükəli hesab edilən işlərlə (məsələn, dağ-mədən işləri) məşğul ola bilərlər". Biz robotları şaxta, tikinti meydançası, tunel və başqa infrastruktur obyektlərində tətbiq etməklə onların bacarıqlarını təkmilləşdiririk" - "OffWorld" şirkətinin direktoru Cim Keraval deyib. Keraval hesab edir ki, növbəti robot hazırlamaları NASA astronavtları üçün Ayın səthinə enməni nəzərdə tutan missiyada faydalı ola bilər.

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.